Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

2

OKTYABR 2019-cu il

№ 175 (4073)

Qiyməti 40 qəpik

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# PREZİDENTİN FEVRAL QƏRARI, BANKLARIN YANLIŞ KURSU - PROBLEMLİ KREDİTLƏR YENİ ARTIMDA...

■ səh. 10 ■

Azərbaycanda əhalinin yeni siyahıyaalınmasının ilk iştirakçısı Prezident özü oldu...

■ səh. 2 ■

Ermənistanda yezidi kürdlərin sayını 60 mindən 20 minə endirib adını da qoyublar "kürdlərin evi"...

■ səh. 7 ■

AXCP hakimiyyətin mitinqlərə icazə siyasətinin mahiyyətini 8 oktyabrda yenidən saxtalaşdırmağa hazırlaşır...

■ səh. 4 ■

Rəfael Cəbrayılov kommunist biletini indiyə qədər niyə saxlayır...

■ səh. 5 ■

Azərbaycanın aqroekoturizm sahəsində görünməmiş dirçəliş...

■ səh. 12 ■

Pensiyaçılarımız minimum pensiyanın artırılmış ilk məbləğini nə vaxt alacaqlar...

■ səh. 13 ■

Bu il ən çox iqtisadi artım Bakıdan sonra İmişlidə qeydə alınıb, ən çox iqtisadi tənəzzül isə...

■ səh. 11 ■

Azərbaycanda məktəb müəllimlərinin vahid geyim formasına keçdikləri ilk təcrübə...

■ səh. 15 ■



## Azərbaycan Ermənistana qarşı ikinci - ən təsirli təzyiq vasitəsini də hərəkətə gətirəcək...

■ səh. 9 ■



Paşinyanın BMT çıxışının effekti sıfıra endirildi, ermənilər Məmmədyarovun istefası ətrafında müzakirə açdı...

■ səh. 7 ■

SOCAR-a qarşı yeni kampaniya, Qarabağ əlillərini çirkin oyunlara cəlb etmək cəhdləri...

■ səh. 13 ■




Son aylarda polis-vətəndaş münasibətlərində sosial məmnunluğu artıran yeni layihələr...

■ səh. 11 ■

Zakir Qaralov peşə bayramı günündə "ekstremist sosial şəbəkəçilərə" qəti və konkret xəbərdarlıq etdi

■ səh. 3 ■



Vüqar Səfərli jurnalistlər üçün inşa edilmiş ikinci binanın sənədləşmə prosesinin tam başa çatdığını açıqladı

■ səh. 2 ■



İndi məsuliyyətli olmaq tək polis və SOCAR işçiləri üçün yox, həm də....

■ səh. 5 ■



Əli Kərimli və müavinlərinin indiki tənəzzül dövründə sıravi AXCP-çilər nə etməlidir...

■ səh. 4 ■



Özəl klinikalar dövlətin həssas təbəqələrinə yönəlik sosial dəstək layihələrinə, ümumiyyətlə, qoşulmur...

■ səh. 15 ■



## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Nəsimidə və Nərimanovda görülən yeniliklərlə tanış oldular

**Oktyabrın 1-də Bakının Nəsimi rayonunda 28 May, Dilarə Əliyeva və Fikrət Əmirov küçələrinin kəsişməsində yeni park istifadəyə verilib.**

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva parkda yaradılan şəraitlə tanış olublar.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 1-də Bakının Nərimanov rayonundakı Atatürk prospektində yerləşən parkda əsaslı yenidənqurmadan sonra yaradılan şəraitlə də tanış olublar.

## Baş Prokurorluq R.Cəbrayılovla bağlı araşdırmalar aparacaq

*Baş Prokuror - "...fəaliyyətinə xitam verdikdən sonra bu məsələ müzakirə olunacaq"*

**Mərkəzi Seçki Komissiyası deputat R.Cəbrayılovun fəaliyyətinə xitam verdikdən sonra bu məsələ müzakirə olunacaq.**

"Trend"in məlumatına görə, bunu jurnalistlərə açıqlamasında Baş Prokuror Zakir Qaralov deyib.

Onun sözlərinə görə, R.Cəbrayılovun aldığı borcla bağlı vətəndaşlar məhkəmələrə müraciətlər edib: "İddia ərizəsinə mülki qaydada baxılır. Məhkəmə baxışında əgər onun tərəfindən dələduzluq və ya cinayət faktı müəyyən ediləcəksə, onun barəsində xüsusi qərardad çıxarılaraq prokurorluğa göndəriləcək. Bundan sonra biz həmin araşdırmaları aparacağıq".

Qeyd edək ki, Milli Məclisin sentyabrın 30-da keçirilən plenar iclasında parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, deputat R.Cəbrayılov mandatdan imtina etməsi barədə müraciət edib.

Ə.Hüseynli qeyd edib ki, R.Cəbrayılovun müraciəti barədə Mərkəzi Seçki Komissiyası qərar qəbul edəcək.

## Baş Prokurorluqda Fuad Qəhrəmanlı ilə bağlı QHT-lərin müraciətlərinə baxılır

**Qadın və uşaq hüquqlarını müdafiə edən bəzi qeyri-hökumət təşkilatları (QHT) AXCP sədrinin sabiq müavini Fuad Qəhrəmanlının öz ailə üzvlərinə qarşı törətdiyi dərin işgəncələr, iztirablar, ağır xəsarətlər yetirilməsi ilə bağlı onun cinayət məsuliyyətinə cəlb olunması üçün Baş Prokurorluğa müraciət edib.**



"Trend"in məlumatına görə, bunu jurnalistlərə açıqlamasında Baş Prokuror Zakir Qaralov deyib.

Z.Qaralovun sözlərinə görə, həmin müraciət hazırda Baş Prokurorluqda baxılma mərhələsindədir: "Sözsüz ki, biz ilk növbədə zərərçəkmişlərin, həm həyat yoldaşının, həm də azyaşlı qızının rəsmi mövqeyini öyrənməliyik. Bundan sonra qanun çərçivəsində qərar qəbul olunacaq. Xüsusilə onu vurğulamaq istərdim ki, bu gün özünü müxalifət adlandıran, özlərini vətəndaşların hüquqlarının müdafiəsi üzrə daim cəmiyyətə təqdim edən şəxslər öz ailələrində bu cür qanunsuz, vəhşi hərəkətlər etdiklərinə görə cəza almalıdırlar. Bizdə olan məlumata görə, həmin partiyanın rəhbərliyinin də bundan xəbəri olub və təəssüflər olsun ki, onlar da vaxtında heç bir tədbir görməyib, heç bir məlumat verməyiblər".

## Oktyabrın 2-də jurnalistlərdən çıxarış üçün sənədlər toplanacaq

**Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən 2 oktyabr tarixində, saat 10:00-da ölkə başçısı cənab İlham Əliyevin 2013-cü il 22 iyul tarixli Sərəncamı ilə jurnalistlər üçün inşa edilmiş və onların mülkiyyətinə verilmiş ikinci binada səyyar qeydiyyat xidməti göstəriləcək.**



Komitədən "Trend"ə verilən məlumata görə, jurnalistlərin mənzillərinə dair elektron çıxarışın hazırlanması üçün ilkin sənədlər toplanacaq.

Tədbir oktyabrın 2-si saat 10:00-da Bakı, Yeni Salyan yolunda yerləşən, jurnalistlərə verilən ikinci binanın həyətində baş tutacaq.

# Azərbaycanda əhalinin yeni siyahıyaalınmasının ilk iştirakçısı Prezident özü oldu...

**Oktyabrın 1-də Prezident İlham Əliyev ölkəmizdə həyata keçirilən növbəti siyahıyaalınmada iştirak edərək siyahıyaalınma və sorğu vərəqələrinin suallarını cavablandırıb.**

Xatırladaq ki, siyahıyaalma üzrə sualları cənab Prezidentə Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov təqdim edib.



# Vüqar Səfərli jurnalistlər üçün inşa edilmiş ikinci binanın sənədləşmə prosesinin tam başa çatdığını açıqladı

**Jurnalistlər üçün inşa edilmiş ikinci binanın sənədləşmə prosesi tam başa çatıb.**

Bunu "Trend"ə özəl açıqlamasında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) icraçı direktoru Vüqar Səfərli deyib.

Onun sözlərinə görə, oktyabrın 2-si saat 10:00-dan etibarən həmin binada mənzillərə çıxarışların ("kupça") verilməsi üçün sənədlərin qəbuluna başlanılacaq: "Məlumat üçün bildirim ki, Əmlak Məsələləri Dövlət Komitəsi, notariat kontoru və Fondun əməkdaşlarından ibarət heyət mənzillərə çıxarışların verilməsi üçün sənədləşmə işlərini aparacaqlar".



Qeyd edək ki, Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən 2 oktyabr tarixində, saat 10:00-da ölkə başçısı cənab İlham Əliyevin 2013-cü il 22 iyul tarixli Sərəncamı ilə jurnalistlər üçün inşa edilmiş və onların mülkiyyətinə verilmiş ikinci binada səyyar qeydiyyat xidməti göstəriləcək.

Jurnalistlərin mənzillərinə dair elektron çıxarışın hazırlanması üçün ilkin sənədlər toplanacaq.

Tədbir oktyabrın 2-si saat 10:00-da Bakı, Yeni Salyan yolunda yerləşən, jurnalistlərə verilən ikinci binanın həyətində baş tutacaq.

# "Qarabağ əlillərinin adından sui-istifadə edən şəxslər var"

**"Azərbaycanda istər Qarabağ əlili, istər şəhid ailələri, istərsə də müharibə veteranları üçün lazımi şərait yaradılıb. Onlara bir çox imtiyazlar verilib.**

Təəssüf ki, bəzən bir qrup insan bu adlardan sui-istifadə etməyə cəhdlər göstərir, nəticədə xoşagəlməz hadisələr olur".

Baki-xeber.com xəbər verir ki, bunu "Report"a açıqlamasında Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyinin sədri Emin Həsənli özlərini Qarabağ əlili kimi təqdim edərək SOCAR-ın Neft Kəmərlərinin Mühafizə İdarəsinin əməkdaşlarına xəsarət yetirən şəxslərin qanunsuz hərəkətlərinə münasibət bildirərkən deyib.

O qeyd edib ki, heç kimə bu və ya digər adlardan istifadə edib qanuna qarşı hörmətsizlik etməyə imkan verilmir: "Çünki Qarabağ əlilləri və digər imtiyazlı şəxslər vətən uğrunda bu yerə gəlib çatıblar. Bəzən sosial şəbəkələrdə də bu kimi informasiyalara rast gəlinir və təəssüf hissi doğurur. Hər birimiz Qarabağ əlillərinə sahib çıxmalıyıq. Unutmaq lazım deyil ki, hər bir vətəndaş kimliyindən asılı olmayaraq ölkə qanununa hörmət etməlidir. Heç kimə fövqəladə status verilməyib ki, Azərbaycan qanunlarına qarşı hərəkət etsin. Çünki bu yaxşı olmayan hallara gətirib çıxara bilər. Bəzən kimlərsə hay-küy qaldıraraq Qarabağ əlillərinə qarşı canı yanırmış kimi hərəkət edirlər. İstənilən halda qanunun aliliyi prinsipi əsas götürülməlidir. Heç kimə o status verilməyib ki, vəzifə borcunu yerinə yetirən şəxsə qarşı hörmətsiz yanaşsın".



"Ölkədə hüquq, qanun və məhkəmə var. Hər kəsin bu xidmətlərdən yararlanmaq ixtiyarı var.

Qarabağ əlillərinin adından sui-istifadə edən şəxslər var. Bu, qəti yolverilməzdir. Belə insanlara qarşı qatı mübarizə aparmalıyıq. Bu addan sui-istifadə etmək, ilk növbədə, statuslu ailələrin yaxınlarını incidir. Canını qurban verənlər, müharibədə döyüşüb əlil qalan insanlar heç vaxt bu addan istifadə etmirlər. Hətta onlara müəyyən bayramlarda diqqət və qayğı göstərəndə çəkinirlər, deyirlər ki, vətən uğrunda etdikləri onların borcudur. Bəzən aidiyyəti olmayanlar bu addan yararlanaraq öz məqsədləri üçün istifadə edirlər. Bu kimi hallar qanuna qarşıdır", - E.Həsənli qeyd edib.

# Zakir Qaralov peşə bayramı günündə "ekstremist sosial şəbəkəçilərə" qəti və konkret xəbərdarlıq etdi

**Azərbaycan Prokurorluğunun kollektivi 1998-ci ildən etibarən hər il oktyabrın 1-də peşə bayramını geniş qeyd edir. Builki bayram milli prokurorluq orqanlarının yaradılmasının 101-ci ildönümünə təsadüf edib.**

Bu münasibətlə Baş Prokurorluğun, Respublika Hərbi və Bakı Şəhər prokurorluqları orqanlarının kollektivləri oktyabrın 1-də Fəxri xiyabana gedərək, ulu öndər Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini yad edib, məzarları üzərinə tər çiçəklər düzüblər.

Sonra Şəhidlər xiyabanına gələn prokurorluğun kollektivi Azərbaycanın müstəqilliyi və azadlığı uğrunda şəhid olmuş qəhrəman Vətən övladlarının xatirəsinə dərin ehtiramlarını bildirib, məzarları üzərinə gül dəstələri qoyub, "Əbədi məşəl" abidəsini ziyarət ediblər.

Daha sonra Baş Prokurorluqda 1 oktyabr - Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü və milli prokurorluğun yaradılmasının 101-ci ildönümü münasibətilə mərasim keçirilib.



Azərbaycan Respublikasının dövlət himni səsləndirildikdən sonra Baş prokuror Zakir Qaralov prokurorluq orqanlarında çalışan bütün əməkdaşları, veteranları, onların ailə üzvlərini peşə bayramı münasibətilə təbrik edib.

Baş prokuror bildirib ki, Prezident İlham Əliyev tərəfindən müasir dövrün bütün reallıqlarını nəzərə alaraq uzaqgörənliklə həyata keçirilən strateji inkişaf konsepsiyası, müdrik dövlət siyasəti və səmərəli idarəetmə üsulu respublikamızın dayanıqlı sosial iqtisadi inkişafına, əhalinin yaşayış şəraitinin və sosial rifahının ilbeil yüksəldilməsinə şərait yaradıb.

Diqqətə çatdırılıb ki, ölkəmizdə hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu istiqamətində genişmiqyaslı işlər görülür. Son dövrlərdə Azərbaycan Respublikasında ardıcıl və sistemli şəkildə həyata keçirilən sosial-iqtisadi islahatların reallaşdırılması, hərtərəfli düşünülmüş dövlət siyasətinin həyata keçirilməsi, ictimai-siyasi sabitliyin təmin olunması nəticəsində Azərbaycan beynəlxalq birliyin tamhüquqlu üzvü kimi layiq olduğu yerini tutub.

Baş prokuror bildirib ki, Prezident İlham Əliyevin 2004-cü il 3 mart tarixli "Korrupsiyaya qarşı mübarizə haqqında" Qanunun tətbiq edilməsi barədə Sərəncamına əsasən, Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin yaradılması və sonrakı illərdə fəaliyyətinin təkmilləşdirilməsi, ən müasir tələblərə cavab verən inzibati bina ilə təmin olunması, dövlət başçısının həmin binanın açılış mərasimində şəxsən iştirakı və prokurorluq işçiləri ilə görüşdə tövsiyə və tapşırıqlar verməsi ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində siyasi iradənin ən yüksək təzahürü və ölkə rəhbərliyinin prokurorluq orqanlarının cəmiyyətdəki roluna, funksiyalarına və fəaliyyətinə göstərdiyi yüksək inam və etimadın nümunəsidir.

Baş prokuror bildirib ki, 2002-ci ildən tətbiqinə başlanılan və ölkəmizdə reallaşdırılan dövlət gənclər siyasəti çərçivəsində daha da geniş vüsət alan prokurorluq orqanlarına dövlət orqanlarının, QHT-lərin, beynəlxalq qurumların və KİV nümayəndələrinin iştirakı ilə aşkarlıq şəraitində, müsabiqə yolu ilə qulluğa qəbulun həyata keçirilməsi nəticəsində indiyədək 19 müsabiqə təşkil olunub. Həmin müsabiqələr əsasında işə qəbul edilmiş gənc mütəxəssislər təyinat aldıqları müxtəlif vəzifələrdə səmərəli fəaliyyət göstərirlər. Xidmətdə fərqləndiklərinə və vəzifə borclarını nümunəvi icra etdiklərinə görə müsabiqə yolu ilə qulluğa qəbul edilmiş 873 gənc hüquqşünasın bir çoxu prokurorluğun müxtəlif struktur qurumlarında məsul vəzifələrə irəli çəkilib. Həmçinin cari il fevralın 18-də prokurorluq orqanlarına işə qəbul olunmaq üçün 80 vakant ştat vahidi üzrə elan edilmiş 20-ci müsabiqənin sonuncu mərhələsi başa çatdıqdan sonra vakant ştat vahidlərinin tam komplektləşdirilməsi hesabına prokurorluğun kadr korpusunun 70 faizdən çoxunu gənc mütəxəssislər təşkil edəcək.

Son zamanlar ölkə daxilində olan antimilli qüvvələrin və radikal müxalifət partiyalarının köməyi ilə guya ölkədə "siyasi təqiblərə" məruz qaldıqları görüntüsü yaratmaqla Azərbaycanı tərk edərək xarici ölkələrdə özlərinə bir vasitə ilə sığınacaq tapmış və ermənipərəst xarici dairələrin diqtəsi ilə hərəkət edən, milli-mənəvi dəyərlərdən uzaq bəzi şəxslər tərəfindən sosial şəbəkələrdə səsləndirilən ekstremist çağırışların, təhqir və böhtanların qarşısının alınması üçün kəsərli tədbirlər həyata keçirilir. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar nəticəsində xalqımızın rifah halının gündən-günə yaxşılaşması və xalq-iqtidar birliyinin sarsılmazlığından narahat olan, xaricə satılmış antimilli müxalifət düşərgəsinin təmsilçilərinin ölkəmizdə ictimai-siyasi sabitliyi və əmin-amanlığı pozmağa yönələn cəhdlərinin qarşısı bundan sonra da xalqımız və dövlətimiz tərəfindən qətiyyətlə alınacaq.

Sonra xidmətdə fərqləndiklərinə görə mükafatlandırılmış prokurorluq əməkdaşlarının bir qisminə Baş prokuror tərəfindən "Fəxri Fərman"lar və digər təltiflər təqdim olunub.

Tədbirin yekununda Azərbaycan Respublikası Prokurorluğunun kollektivi adından Prezident cənab İlham Əliyevə müraciət qəbul edilib.

### İlqar Abbasov peşə bayramı günündə söz verdi...

Oktyabr 1-də Bakı Şəhər Prokurorluğunda Azərbaycan Prokurorluğunun yaradılmasının 101-ci ildönümü və prokurorluq işçilərinin peşə bayramına həsr olunmuş tədbir keçirilib.

Tədbirdə çıxış edən Bakı şəhər prokuroru İlqar Abbasov ölkəmizdə ilk prokurorluq orqanının Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində yaradılmaqla fəaliyyətə başlamasını qeyd edərək, Azərbaycan Prokurorluğunun keçdiyi mürəkkəb və şanlı inkişaf yolundan bəhs edib.

Tədbirdə çıxış edən Bakı şəhər prokurorunun müavini Azər Əsgərov prokurorluq orqanlarının keçdiyi şərəfli tarixdən, prokurorluğa göstərilən dövlət qayğısından bəhs edərək prokurorluq orqanlarının dövlət orqanları sistemindəki rolunu diqqətə çatdırıb.

Bakı şəhər prokuroru İlqar Abbasov yekunda prokurorluq orqanları işçilərinin peşə bayramı günü münasibətilə prokurorluq işçilərini bir daha təbrik edərək, prokurorluğa göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

İ.Abbasov əmin edib ki, Bakı Şəhər Prokurorluğu bundan sonra da dövlətçiliyimizin, suverenliyimizin qorunması, insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi, cinayətkarlığa qarşı mübarizə, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi sahəsində yüksək məsuliyyət hissi ilə çalışacaq.

Tədbirin sonunda Azərbaycan Respublikası Baş prokurorunun müvafiq əmri ilə barələrində həvəsləndirmə tətbirləri tətbiq edilmiş əməkdaşlara mükafatlar təqdim edilib.

# AXCP hakimiyyətin mitinqlərə icazə siyasətinin mahiyyətini 8 oktyabrda yenidən saxtalaşdırmağa hazırlaşır...

**Oktyabrın 8-də, saat 12-də "Milli Şura" və Azərbaycan Xalq Cəbhəsi Partiyası (AXCP) Bakı Şəhər İcra Hakimiyyətinin binası qarşısında sərbəst toplaşmaq hüququnun bərpası ilə bağlı etiraz aksiyası keçirəcək. Bu barədə AXCP məlumat yayıb.**




## *Vüqar Rəhimzadə: "Məgər meriya onlara mitinq keçirməyə rədd cavabı verib?"*

AXCP sədri Əli Kərimli bildirib ki, aksiyada AXCP və "Milli Şura"nın fəalları iştirak edəcək:

"Biz Bakı Şəhər İcra Hakimiyyətinə məktub təqdim edib, sərbəst toplaşmaq haqqımızı tələb edəcəyik. Sərbəst toplaşmaq azadlığının təmin edilməsi bütün problemlərin açarıdır. Etirazımızı bildirmək hüquqmuzu təmin etmək üçün sərbəst toplaşmaq azadlığı lazımdır".

Xatırladaq ki, "Milli Şura"nın sentyabrın 28-də mitinq keçirmək barədə xəbərdarlıq məktubuna Bakı Şəhər İcra Hakimiyyəti qadağanedici cavab verməyib. Belə ki, "Milli Şura"nın mitinq keçirmək üçün paytaxtın mərkəzi hissələrində təklif etdiyi 3 yerdən heç birinə Bakı Şəhər İcra Hakimiyyəti müsbət cavab verməyib. İcra Hakimiyyəti aksiyanın şəhərdən kənarda Lökbatan qəsəbəsində keçirilməsini təklif edib.

"Milli Şura" İcra Hakimiyyətinin təklifini qəbul etməyib, mitinqin paytaxtın mərkəzi hissəsindəki meydanlardan birində keçirilməsində israrlı olduğunu bildirib.

Xatırladaq ki, müxalifətin icazəli aksiyaları uzun illərdir Bakının Yasamal rayonundakı "Məhsul" stadionunda keçirilirdi. Bu yaxınlarda həmin stadionda təmir işlərinə başlanıb. AXCP-nin mövqeyindən belə anlaşılır ki, onlar meriyanın mitinqə verdiyi icazəyə icazəsiz aksiya ilə etiraz etmək istəyirlər. Çünki meriya cavabında "Milli Şura"ya mitinq keçirməyi qadağan etməyib. Sadəcə, təklif etdiyi yeri təşkilatçılar bəyənməyib. AXCP-nin bu etiraz metodunu nə dərəcədə əsaslı saymaq olar?

"İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə "Bakı-Xəbər"ə bildirdi ki, AXCP-nin hansı dərəcədə fırıldaqla idarə olunduğunu öz funksioneri videomüraciətində dedi: "Vallah, mən bunlara fırıldaqçıdan başqa ad tapıb deyə bilmirəm. Meriyanın qarşısında etiraz aksiyası keçirmək nəyə lazımdır? Məgər meriya onlara mitinq keçirməyə rədd cavabı verib? Onlara rəsmi şəkildə cavab verilib və izah olunub ki, gedib mitinqi Lökbatanda keçirə bilərlər. Bunlar isə həmin yeri bəyənmirlər. Mən başa düşmürəm, Lökbatan bəyəm Mazandaran zaddır. Ora da Bakının bir rayonudur. Niyə oradan qorxduqlarını deyim. Bilirlər ki, ora toplamağa elektoratları yoxdur. Bunlar istəyirlər ki, şəhərin mərkəzində şou göstərsinlər, əhali də ora toplaşıb bunların tamaşasına baxsın. Sonra həmin adamları sayıb, mitinq iştirakçısı kimi təqdim edib, ağalarından daha çox qrant alsınlar. Mahiyyət bundan ibarətdir. Həmişə fırıldaq adamlar fırıldaq vasitələrə əl atırlar. YAP-ın özü həmin yerdə çox möhtəşəm aksiyalar keçirib. Siz niyə keçirmirsiniz? Meriyanın qarşısında aksiya keçirməklə növbəti şounu nümayiş etdirmək istəyirlər. Belə bir aksiya üçün heç bir əsas yoxdur. Sadəcə, həmin qüvvələr ictimai sabitliyi pozmağı düşünürlər. Bütün təxribatların qarşısı alınacaq. Çünki Azərbaycan dövləti üçün onun vətəndaşının təhlükəsizliyi, əminamanlığı hər şeydən üstündür. Bununla radikal müxalifət necə tükəndiyini bir daha sübut etmiş olur".

### *"Lökbatan bəyəm Mazandaran zaddır..."*

***Məhəmmədəli QƏRİBLİ***

---

# Əli Kərimli və müavinlərinin indiki tənəzzül dövründə sıravi AXCP-çilər nə etməlidir...

**AXCP sədri Əli Kərimlinin nəinki öz opponentlərinə, hətta lazım gəldikdə öz "əqidədaşlarına", partiyanın sıravi üzvlərinə və səlahiyyətli nümayəndələrinə qarşı daim çirkin üsullarla mübarizə aparması heç kimə sirr deyil. Demokratiya adı altında min bir oyuna girən Ə.Kərimlinin çirkin əməlləri ilə bağlı kifayət qədər həqiqət mətbuatda öz əksini tapıb.**



## *Məhərrəm Zülfüqarlı: "Bu cür zəif sosial bazası, strukturu olan partiyada qalmaqdansa, sıravi üzvlərin istefa verməsi daha məqsədəuyğundur"*

Zaman-zaman AXCP-dən istefa verən cəbhəçilər də öz "liderləri"nin çirkin xislətindən, xəyanətkar əməllərindən və antimilli fəaliyyətindən dəfələrlə söz açıblar.

AXCP-dən istefa verən şəxslərin hamısı məhz Ə.Kərimlinin partiyada daxili avtoritarizm yaratması, azad sözün boğulması, tənqidə və fərqli fikrə dözümsüz yanaşması barədə danışırdılar. Sıravi cəbhəçilər bildirirdilər ki, bu partiyada hər şey yalnız bir nəfərə - Ə.Kərimliyə xidmət edir. Ə.Kərimli keçmiş silahdaşlarını uzun müddət yalançı vədlərlə aldadaraq onları istismar edib. Bütün bunlarla yanaşı, son vaxtlar baş verənlər AXCP-də ciddi bir böhran yaşandığından xəbər verir. Ə.Kərimliyə yönəlik partiyadaxili ittihamlar get-gedə daha da artır. İstər sıravi, istərsə də partiyanın müəyyən strukturlarında təmsil olunan cəbhəçilərin timsalında Ə.Kərimliyə yönəlik ittihamlar artır.

AXCP-nin keçmiş sədr müavini Fuad Qəhrəmanlının olayı və bundan sonra onun müavinlikdən getməsi partiyada ciddi çalxantıların növbəti əsasını qoydu. AXCP üzvləri "troll dəstələri" yaradan və onu mükəmməl şəkildə idarə edən sədrlərini ələ verdilər. Belə ki, partiya üzvləri Ali Məclisin üzvü Rəşid Turabovun AXCP sədri Əli Kərimli ilə danışığının səs yazısını mediaya ötürdülər. Həmin səs yazısı bu partiyanın qanunazidd əməllərlə məşğul olduğunu, ictimai rəylə manipulyasiya etdiyini çox açıq şəkildə göstərir.

İndi də AXCP Nəzarət Təftiş Komissiyasının (NTK) sədri Aydın Əliyev partiyanın sədrinə qarşı bəyanat verib. O, AXCP sədrinin xaricdən gələn qrantlar hesabına ərəb şeyxləri kimi həyat tərzi sürdüyünü deyib: "Partiya daxilində diktatura rejimi qurub. Fərqli düşünənləri, onun antidemokratik hərəkətinə etiraz edənləri ən çirkin üsullarla ləkələyib, böhtanlara məruz qoyub partiyadan uzaqlaşdırıb. Ə.Kərimli bir siyasi dələduz olaraq bizi aldadıb. Bu gün də gəncləri aldadaraq öz çirkli oyunlarına qurban vermək istəyir".

Partiyanın ali qurumlarında təmsil olunan şəxslər belə açıq etiraz bəyanatı ilə çıxış edirlərsə, sədri kəskin şəkildə ittiham edib istefa verirlərsə, o zaman partiyanın rayon strukturlarında təmsil olunan sıravi cəbhəçilər nə etməlidirlər? Təbii ki, doğrudan da belə strukturlar varsa. Hərçənd, rayonlarda belə strukturların olması real görünmür. Uzun illərdir Ə.Kərimli tərəfindən yalan vədlərin verilməsi sözügedən strukturların, faktiki olaraq, zamanla yox olmasına gətirib çıxarıb.

Məsələyə münasibət bildirən İctimai Problemlərin Tədqiqi Assosiasiyasının rəhbəri Məhərrəm Zülfüqarlının sözlərinə görə, partiyanın rayon strukturları varsa, o zaman sıravi cəbhəçilər AXCP-dən uzaqlaşmalıdırlar: "Perspektivi olmayan bir partiyaya vaxtlarını, enerjilərini sərf etməyin heç bir mənası yoxdur. Azərbaycan çoxpartiyalı sistemə 90-cı illərin əvvəllərindən keçib. O vaxtdan ölkədə çoxpartiyalı sistem formalaşdı. Çoxpartiyalı sistemə keçiddən sonra partiyaların ictimai rəyə təsiri əvvəllər daha çox idi, nəinki indi. Azərbaycanda radikal müxalifətin sosial bazası ildən-ilə zəiflədiyinə görə bu partiyalardan istefalar kütləviləşir. Düzdür, belə hallar əvvəllər də olurdu, amma indiki kimi geniş vüsət almamışdı. Bir təşkilatın ki, qərargahı, konfrans keçirməyə zalı, qurultay keçirməyə imkanı yoxdursa, həmin partiyada qalmağa dəyməz. AXCP kimi zəif təşkilatlar hakimiyyətə qarşı radikal mövqe tutanda sıravi üzvlər bu cür radikalizmi qəbul etmirlər. Yəni güc olmaya-olmaya bu cür populist fikirlərlə insanları qarşıqarşıya qoymağı vətəndaşlar qəbul etmirlər. Ona görə də AXCP-dən kütləvi istefalar baş verir. Dekabrda bələdiyyə seçkiləri olacaq. Gələn il parlament seçkiləri keçiriləcək. Seçkilər yaxınlaşdıqca, sıravi cəbhəçilərin partiyadan kütləvi uzaqlaşması gözlənir. Əvvəlki illərin təcrübəsindən çıxış edərək bunu deyirəm. Bu cür zəif sosial bazası, strukturu olan partiyada qalmaqdansa, sıravi üzvlərin istefa verməsi daha məqsədəuyğundur".

### *"Perspektivi olmayan bir partiyaya vaxtlarını, enerjilərini sərf etməyin heç bir mənası yoxdur"*

***Vidadi ORDAHALLI***

# İndi məsuliyyətli olmaq tək polis və SOCAR işçiləri üçün yox, həm də....

**Polisin və SOCAR işçilərinin qanuni fəaliyyətlərinə mane olmaq, onların imicini ləkələmək cəhdlərinin kampaniya formasında həyata keçirilməsinə zaman-zaman rast gəlinir və burada müəyyən siyasi dairələrin birbaşa iştiraklarının, maraqlarının olduğu şübhəsizdir. Bu günlərdə yayılan və xüsusi canfəşanlıqla paylaşılan bir videoçəkilişin diqqətlə izlənilməsi və təhlili bunu bir daha ortaya çıxardı.**



Baxın, bütün ölkədə asayiş və qanunçuluğun sarsılmaz dayağı olan polislər, guya əlilləri döyən, incidən, haqlarını ayaqlayan zorakı bir dəstə kimi sadə insanların vizual yaddaşına həkk edilir. Polisi əlillərin və binəsib insanların qəddar düşməni kimi göstərənlərin əsl hədəfinin nə olduğunu başa düşürsünüzmü? Hədəf ölkədəki əmin-amanlıq və insan həmrəyliyi mühitidir.

Bu sözləri politoloq Aydın Quliyev son günlər məqsədli şəkildə yayılan məlum video ilə bağlı özünün facebook səhifəsində yazıb. A.Quliyev daha sonra qeyd edir:

-Azərbaycanın bütün dünya boyu tanınma brendinə çevrilmiş və ölkənin iqtisadi inkişafının əsas maliyyə bazası rolunu oynayan SOCAR-ı cəmiyyətimizin qayğıya ehtiyacı olan təbəqələrini sıxışdıran qüvvə kimi göstərənlər əslində bilirsinizmi haranı və nəyi vururlar? O SOCAR-ı ki, ölkəyə milyonlarla valyuta axınını təşkil və idarə edən böyük prosesin başında durur. O SOCAR ki, məhz onun qazandırdığı gəlirlər hesabına ölkə inkişaf etdirilir, müdafiə gücümüz artırılır, Qarabağ əlillərinin,şəhid ailələri və vetranların pensiya və təqaüdləri MDB-də müqayisə ilə sanballı şəkildə fərqlənən həddə qədər artırılır, yollar çəkilir, məktəb və xəstəxanalar tikilir, iş yerləri açılır və sair...Görünür ki, vəziyyətin belə dəyişməsindən məmnun qalmayanlar hələ də var və gedən prosesləri dayandırmaq gücündə olmasalar da, heç olmasa qaralamaq istəyindən əl çəkmirlər. Bunun üçün hər vasitəyə əl atırlar, hətta Qarabağ əlilləri,şəhid ailələri və müharibə veteranları kimi həssas insanları öz qisasçı siyasi məqsədlərinə və çirkin maddi maraqlarının ödənməsinə alət kimi cəlb etməyə də baş vururlar.

Elə bir görüntü yaratmaq istəyirlər ki,sanki bu həssas insanların real himayədarı dövlət başçısı və onun tabeliyindəki müəyyən qanuni səlahiyyətli rəsmi orqanlar yox, ortaya demoqogiyadan başqa heç nə qoya bilməyən, bu insanlara boğazdan yuxarı deyilən mənasız sözlərdən başqa nəsə verə bilməyən həmin kəmfürsət dairələr imiş... Normal iş üslubu budur ki, əgər hardasa həssas insanlarla bağlı problem, ya narahatlıq varsa, bunu süni qarşıdurma səhnələrinə çevirmədən müvafiq dövlət orqanlarının səviyyəsində real həlli yolları tapılsın.

Azərbaycanda hələ müəyyən problemlər qalsa da, ölkə qanunçuluğun tam bərqərar edildiyi bir cəmiyyətə doğru gedir. Burada ərköyünlüyə, hamıdan fərqli və üstün imtiyazlar ələ keçirmək iddialarına, qanunları pozmağa heç bir halda yaşıl işıq olmamalıdır. Kimlərinsə qanunsuz olaraq torpaq sahələri, əmlak, maşın və texnikaları zəbt etdiyi dövrlərin ab-havası bəzi başlarda hələ yaşasa da, ümumən bu dövr prinsipcə keçmişdə qaldı və hər ötən müddətdə bizdən daha da arxada qalaraq uzaqlaşır.

İndi hamıdan maksimum məsuliyyətli olmağın tələb edildiyi dövrdür. Məsuliyyət tək qanun keşikçiləri üçün yox, iqtisadi sistemin inkişafını təmin edərək ölkəyə valyuta gətirən sektorlar üçün yox, dövlətin iqtisadi-maliyyə gücünə uyğun olaraq əmək haqqı və pensiyaların fasiləsiz şəkildə artırılmasını icra edən sosial təminat orqanları yox, hər birimiz üçündür - müəllim, həkim, Qarabağ əlili, müharibə veteranı, jurnalist, tələbə, təqaüdçülər və s.üçündür.

Hər kəs kəmfürsətlərin əlinə oynamaqdan uzaq olmağa çalışmalıdır. Bilərəkdən, bilməyərəkdən, vicdanlı yanılma ilə araqarışdıranların oyunlarında alətə çevrilmək bağışlanmaz nəticələrə gətirib çıxara bilər və faydasızdır. Siyasi demoqogiya ilə məşğul olan heç bir qüvvə və ya şəxs əhalinin həssas təbəqələri üçün ən kiçik bir dövlət orqanının ölkə Prezidenti adından etdiyinin və edə biləcəyinin heç yüzdə birini də edə bilməz...

# Rəfael Cəbrayılov kommunist biletini indiyə qədər niyə saxlayır...

**Rəfael Cəbrayılov Milli Məclisin deputat mandatından imtina etməsi ilə bağlı açıqlama verib. O deyib ki, borc məsələsi müzakirəyə çıxarıldığına görə deputat kimi fəaliyyət göstərmək istəməyib: "Məsələ qardaşım Elşən Cəbrayılova məxsus tikinti şirkəti ilə bağlı idi. Devalvasiyadan sonra vətəndaş Təranə Fətəliyeva ilə qardaşım arasında narazılıq yarandı.**



## *Rauf Zeyni: "Xüsusilə də Azərbaycanda neçə il deputat olmuş şəxsin belə fikirləri varsa, mən buna dərindən təəssüf edirəm"*

Ümumiyyətlə, mənə dedilər ki, bəlkə, istefa verməyə tələsməyəsən, amma mən belə daha düzgün hesab etdim. Bu, Azərbaycanda nadir hadisələrdəndir. Yeni Azərbaycan Partiyasının üzvü deyiləm, ona görə bunu dramatikləşdirməyə ehtiyac yoxdur, janqlyorluq etməsinlər".

O, borc məsələsinin tez bir zamanda həll ediləcəyini qeyd edib.

R.Cəbrayılov Heydər Əliyev siyasi kursuna sadiq qaldığını vurğulayıb: "Hazırda İlham Əliyevin siyasi kursuna sədaqətlə xidmət edirəm. Bundan sonra da belə olacaq. Mən tez-tez əqidəsini dəyişən adam deyiləm. Kommunist Partiyasının biletini hələ də saxlayıram. Cəlil Məmmədquluzadə demiş, bəlkə də qaytardılar".

Sabiq deputat ölkəni tərk etməyəcəyini deyib. Könüllü istefa verən deputatın açıqlamasında Kommunist Partiyasının biletini hələ də saxladığını deməsi və sonra bunu "bəlkə də qaytardılar" kimi əsaslandırması cəmiyyət tərəfindən birmənalı qarşılanmayıb. Sosial şəbəkələrdə bu fikir geniş rezonans doğurub. Sabiq deputatın Kommunist Partiyasının biletini saxlamasını fəxrlə danışması nəyə dəlalət edə bilər?

Milli Qeyri-Hökumət Forumunun prezidenti Rauf Zeyni "Bakı-Xəbər"ə bildirdi ki, həmin fikrə qarşı münasibəti çox mənfidir: "Bəli, biz gördük ki, adı borc qalmaqalında hallanan R.Cəbrayılov könüllü olaraq öz mandatından imtina etdi. Mən onun bu addımını müsbət hal kimi qəbul edirəm. Çünki insan səhvini anlayıb ki, belə addım atıb. Onun mətbuat konfransında istefasının səbəblərini izah edərkən daha bir qalmaqallı açıqlama verməsi heç lazım deyildi. Deyib ki, Kommunist Partiyasının vəsiqəsini hələ də saxlayır. Həmin bileti tək Cəbrayılov saxlamır. Yəqin ki, Azərbaycanda çoxlu sayda adam onun kimi edir. Ancaq burada məqsədlər fərqlidir. Bəziləri rusların yenidən gəlib buranı işğal etməsini gözləyir. Bəziləri isə tarixi sənəd kimi saxlayır. Bütün hallarda təəssüf edirəm. Biz hamımız müstəqil Azərbaycanın vətəndaşlarıyıq. Öz üçrəngli bayrağımızın altında sıx birləşməliyik. Ölkəmizin inkişafı üçün çalışmalıyıq. Hər hansı məqamda Azərbaycanın müstəqilliyinə, onun istiqlaliyyətinə qarşı düşüncə ortaya çıxacaqsa, biz onun qarşısında olacağıq. Bu gün Azərbaycan dövlətçiliyinin müdafiə olunmasına daha böyük ehtiyac var. Xüsusilə də Azərbaycanda neçə il deputat olmuş şəxsin belə fikirləri varsa, mən buna dərindən təəssüf edirəm. Çünki belə təəssürat yaranır ki, sanki sabiq deputat SSRİ-nin bərpasını səbrsizliklə gözləyirmiş. Əlavə şərhə ehtiyac qalmır".

*"...sanki sabiq deputat SSRİ-nin bərpasını səbrsizliklə gözləyirmiş"*

***Məhəmmədəli QƏRİBLİ***



# Şakir Ağayev: "Novoe vremya" qəzetini ağappaq da buraxsaq, oxucumuz onu alacaq"

**"Novoe vremya" qəzetinin baş redaktoru Şakir Ağayevin APA-ya müsahibəsi.**

**- Şakir müəllim, oktyabrın 1-də baş redaktoru olduğunuz "Yeni zaman" - "Novoe vremya" qəzetlərinin təsis olunmasının 20 ili tamam olur. Gəlin keçmişə qayıdaq: rus dilində qəzet təsis etmək ideyası hardan yaranmışdı?**

- O vaxt biz "Yeni zaman" və "Novoe vremya" qəzetlərini təsis edəndə mətbuat o qədər siyasiləşmişdi ki, bir qrup yalnız iqtidar, digər qrup isə müxalifət mətbuatı idi. Deməli olar ki, müstəqil mətbuat yox dərəcəsindəydi. Ortaq bir mövqe tutan, siyasi tapşırıqları yerinə yetirməyən, əsas məqsədi Azərbaycanın milli maraqları olan mətbuata çox böyük ehtiyac var idi. Xarici siyasətdə də yalnız bir xətt vardı. Müxalifət mətbuatı deyirdi ki, nicat Qərbdədir. Belə bir durumda biz həm rus, həm də Azərbaycan dillərində gündəlik çıxan mətbuat orqanı yaratmaq qərarına gəldik. Deyim ki, Azərbaycanda həm rus, həm də öz dilimizdə gündəlik çıxan ilk qəzet biz olmuşuq. Beləliklə, 1999-cu ilin oktyabrın 1-də qəzet lisenziya aldı, oktayabrın 9-da isə ilk sayı işıq üzü gördü. Bəlkə də Azərbaycan mətbuatında lisenziya veriləndən bir həftə sonra fəaliyyətə başlayan çox az qəzet tapılar, biz bunu etmişdik. İlk andan qarşımıza qoyduğumuz məqsəd bu oldu ki, bizim üçün nə müxalifət olacaq, nə də iqtidar. Bizim üçün Azərbaycanın problemləri, ilk növbədə isə Qarabağ problemi əsas olacaq. Beləcə, qısa müddətdə çox böyük oxucu kütləsi qazandıq. Bununla, xarici siyasətdə də yenilik elədik.

**- Hansı yeniliyi nəzərdə tutursunuz?**

- Biz ilk dəfə Azərbaycan cəmiyyətinə sübut elədik ki, Rusiya ilə əməkdaşlıq etmək olar və Rusiya ilə münasibətlərin normallaşmasında böyük rol oynadıq.

**- Bayaq dediniz ki, nicat Qərbdə deyil. Belə başa düşdüm Sizin üçün nicat Rusiyadadır.**

- Nicat Azərbaycanın özündədir. Ancaq xarici siyasətdə təkcə Qərbi tutmaq düzgün deyil. Biz deyirik ki, Rusiya da var. Azərbaycanın milli maraqları kiminlə üst-üstə düşürsə, onunla əməkdaşlıq etmək lazımdır. Əsas məqsəd o idi ki, Rusiya kimi böyük bir dövləti Azərbaycana qarşı qoymaq olmazdı. Tarixdə çox şey olub. Stereotiplərlə yaşamağa ehtiyac yoxdur. Deyək ki, Rusiya tarixən bizə nələrsə edib, indiki dövrdə bununla yaşamaq olmaz, gələcəyə yönəlmək lazımdır.

**- Qəzetiniz 20 illik bir yol keçib. Baş redaktor kimi bu dövrü ümumilikdə necə qiymətləndirirsiniz?**

- 20 ildə biz çox keşməkeşli yol qət eləmişik. Bu 20 ildə nə problemlərimiz olmayıb ki: tipoqrafiya, kağız, maliyyə və başqa problemlər... 2004-cü ildə maliyyə probleminə görə məcbur qalıb "Yeni zaman" qəzetinin çapını dayandırdıq və yalnız rus dilində qəzet çıxarmağa başladıq.

**- İki dildə qəzet buraxan bir jurnalist kimi deyə bilərsinizmi, azərbaycandilli oxucu ilə rusdilli oxucu arasında hansı fərqlər var?**

- Azərbaycandilli oxucunun çoxu mədəni qəzet istəmir; ya yalan yazmalısan, ya söyüş, ya da şantaj... Ona görə də "Yeni zaman"la "Novoe vremya" qəzetlərinin mövzuları tamamilə fərqli idi. Çox təəssüf hissi ilə qeyd edirəm ki, rusdilli oxucular daha diqqətli, daha səviyyəli və analitik təfəkkürü qəbul edən oxuculardır. Azərbaycandilli oxucu hansısa şou-biznes adamının soyunmağına, məişətinə maraq göstərir. Rusdilli oxucu üçün bu maraqlı deyil.

**- Bu gün Sizin sayta belə bir xəbər getmişdi ki, Sergey Lazarevin uşağı olub və o, qızına çoxlu paltar alıb. Bu şou-biznes deyil?**

- Görürsünüz, o yazıda kimsə soyunmağından söhbət getmir. Biz şou-biznes xəbərinin səviyyəlisini veririk. Mən bunu yana-yana deyirəm. Bu gün Qarabağa haqqında xəbər yazırsan, oxunmur, şou-biznes yazılarının oxunması isə kəlləçarxa çıxır.

**- Rusdilli oxucular başqa nə oxumağı sevirlər?**

- Analitik yazıları, təhlil yazılarını çox sevirlər. Bizi sevindirən odur ki, tutalım qəzet hansısa səbəbdən çıxmasa, oxucular dərhal redaksiyaya zəng vurub maraqlanırlar. 20 ildə bizim ən böyük qazancımız oxucularımızdır. Sabah "Novoe vremya" qəzetini ağappaq da buraxsaq, oxucu o qəzeti alacaq. Çünki bizim daimi oxucularımız var.

**- Tirajınız nə qədərdir?**

- Hazırda 3 min tirajla çıxırıq. Azərbaycanda fəaliyyət göstərən Rusiya, ABŞ, Türkiyə, İran, Qazaxıstan, Fransa, Almaniya, İsrail, Qətər səfirlikləri, Fələstin nümayəndəliyi və başqa diplomatik nümayəndəliklər, bir sözlə 23 beynəlxalq təşkilat və səfirlik bizim qəzetə abunədir. Bunun özü böyük göstəricidir. Onu da qeyd edim ki, hazırda onlayn medianın daha geniş vüsət alması, qəzetin tirajının azalmasına istəristəməz təsir göstərir.

**- Hədəf kütləniz kimlərdir?**

- Bizim oxucularımız daha çox ziyalılardır. Gənclər arasında da oxucularımız var. Mənə elə gəlir ki, biz öz hədəfimizə çatmışıq. Biz bilirik ki, hər gün 1000-1500 daimi oxucumuz var. Baxmayaraq ki, hazırda klassik media ağır dövrünü yaşayır, onlayn media ona mane olur, bununla belə, oxucularımız kifayət qədərdir. Düzdür, mən onlayn medianı qəbul etmirəm, istənilən onlayn medianın arxivi 10 dəqiqəyə itə bilər. Ancaq klassik medianın arxivi yüz illər boyu qalır.

**- Rusiyada çap olunan bir çox qəzet Azərbaycana gəlir. Bəs, bizim qəzetlər necə, Rusiyaya göndərilirmi?**

- Çox təəssüf ki, belə bir sistem Azərbaycanda qurulmayıb, ona görə də biz Rusiyada və ya başqa ölkələrdəki oxucularımıza qəzet göndərə bilmirik. Mənim özümə Rusiyanın on regionundan abunə yazılmaq üçün müraciət olunub. Təəssüf ki, biz ora qəzet göndərə bilmirik, məcburən PDF formatında yollayırıq. Google statistikasına görə isə hər ay 157 ölkədən bizim sayta baxış olur.

**- Rusiya mətbuatı ilə əlaqələriniz necədir?**

- Bizim bir çox Rusiya KİV-i ilə güclü əlaqələrimiz var. Biz onlardan material götürürük, onlar bizdən materiallardan istifadə edirlər. Tam əminliklə deyirəm ki, bizim sayt Rusiya Xarici İşlər Nazirliyində, Rusiya Dövlət Dumasında, Rusiya Prezident Administrasiyasında oxunur. Mən bunu Rusiyada iştirak etdiyim tədbirlərdə onların öz dilindən eşitmişəm. Bundan başqa, biz Azərbaycanda Rusiya icması ilə daim təmasdayıq.

**- Qəzetinizdə Rusiya ilə bağlı tənqidlər də verirsiniz?**

- Təbii ki, istər Rusiyanın xarici siyasəti, ələlxüsus Qarabağ məsələsi ilə bağlı olsun, istər Rusiyanın daxili siyasəti ilə bağlı olsun, tənqid veririk. Bir halda ki, Ermənistan BMT tərəfindən də işğalçı ölkə kimi tanınır, ona görə də istəyirik ki, Qərb, Amerika, eləcə də Rusiya Ermənistanı işğalçı kimi tanısın. Bu gün hegemon dövlətlər işğalçı dövlətlə işğala məruz qalan dövlət arasında heç bir fərq qoymur. İşğalçı ermənilərlə Azərbaycanı eyni statusda kompromisə çağırırlar. Azərbaycanın ən böyük kompromisi işğalçı Ermənistanla 25 ildir bir masada oturub danışıq aparmasıdır. Azərbaycan beynəlxalq hüququn prinsiplərini əsas götürərək bir şey istəyir: torpaqlarımızın işğaldan azad edilməsi. Orda yaşayan ermənilərə ən yüksək status vəd edir və tam toxunulmazlığına təminat verir. ABŞ-ın, Qərbin ikili standartlarına başqa bir nümunə deyim: Krım məsələsində Amerika Birləşmiş Ştatları, Avropa Birliyi Rusiyaya nə qədər sanksiya tətbiq elədi! O zaman Rusiya kimi hegemon dövlətə sanksiya tətbiq edən dövlətlər niyə kiçik Ermənistana sanksiya tətbiq etmirlər? Rusiya kimi nəhəng dövlətə sanksiya qoyurlarsa, Ermənistanın nəyindən çəkinirlər? Hanı Qərbin, hanı ABŞ-ın ədaləti? Bu bizə qarşı ikili standart deyil, bəs nədir? Niyə ABŞ özündən 10 min km uzaqda yerləşən terrorçuları milli maraqlarına təhlükə sayıb, heç bir BMT qərarı olmadan, heç bir beynəlxalq hüquqa məhəl qoymadan hərbi müdaxilə edib məhv edir, amma Azərbaycan öz ərazisini işğal edən terrorçu separatçıları məhv etməməlidir? Axı bu bizim haqqımızdır.

**- Belə başa düşdüm ki, Rusiyanın Krımı ilhaq etməsini dəstəkləyirsiniz. Bu isə Ermənistanın işğalına hardasa haqq qazandırmış olur.**

- Mən heç bir ilhaqı qəbul etmirəm və müdafiə də etmirəm. Sadəcə, Krımla Qarabağ məsələsini eyniləşdirmək istəmirəm. Qarabağ bizim tarixi torpağımızdır. Krım isə əvvəldən nə Türkiyə, nə də Rusiyanın olub, Osmanlı imperiyası Krımı alıb, 1768-ci ildə isə Osmanlı Rusiya ilə müharibə elan edib. 1770-ci il Larqa və Kaqul döyüşlərində, eyni zamanda 1770-ci il Çeşmə dəniz döyüşündə Osmanlı ordusu məğlub olub. 1774-cü ildə hər iki dövlət arasında Kiçik Qaynarca sülh müqaviləsi bağlanıb və Krım xanlığı Osmanlıdan ayrılaraq müstəqil olub. 1783-cü ildə Rusiya Krım xanlığını ləğv edərək "Tavrida" adı ilə özünə birləşdirib, yəni Osmanlı o torpaqları Rusiyaya uduzub. Sovet dövründə isə Xruşşov heç bir hüquqi sənəd olmadan Krımı Ukraynaya verib. Krım camaatı isə referendum keçirib Rusiyaya birləşməyi seçdi. Əksinə mən düşünürəm ki, biz bu situasiyadan istifadə edib hücum etməli, tarixi torpağımız olan Qarabağı geri almalıyıq.

**- XXI əsrdə başqa bir dövlətin ərazisinə girmək nə dərəcədə doğrudur?**

- Rusiya oranı hərbi yolla almayıb axı, heç atışma olmayıb. Rusiya Krımda referendum keçirdi, onun nəticəsində Krım Rusiyaya birləşdi. Hər şeydən əvvəl onu deyim ki, mən qəti şəkildə separatçılığın əleyhinəyəm, sadəcə, bunun əsasını ABŞ Kosovada qoyub. ABŞ Kosovanı tanıyıb, prezident yaradanda Rusiya da bu addımı atmalı idi. Onu da qeyd edim ki, Kosovanı heç BMT tanımayıb. Bilirsiniz, bütün separatizmlərə, bütün münaqişələrə böyük dövlətlər tərəfindən ədalət prinsipi ilə yanaşılmalıdır.

**- Qarabağ haqqında yazılara görə ermənilər tərəfindən hər hansı bir təqiblərə rast gəlmisinizmi?**

- Təxminən 12-13 il qabaq qəzetimizdə "Erməni terrorizmi dünya terrorizminin tərkib hissəsi kimi" silsilə yazılar getmişdi. O yazılarda "Asala", "Qnçak" və "Daşnaksutyun" terror təşkilatları tərəfindən dünyada və Azərbaycanda törədilən hər bir terror hadisəsi haqqında məlumat verilmişdi. O yazılardan sonra mənə təhdid dolu nə qədər məktublar gəldi. Siz biləsiniz ermənilər mənə nələr yazırdılar. Mən o məktubların heç birini çap etməmişəm. Çünki mən qarabağlıyam. Bir qarabağlı kimi erməni terrorizmini dünyada ifşa etmək isə mənim borcumdur.

**- Şakir bəy, qəzetinizin hazırda hansı çətinlikləri var?**

- Azərbaycan mətbuatının ən böyük çətinliyi reklam bazarının olmamasıdır. Bütün dünyada qəzetlərin gəlirlərinin 70 faizi reklamdandır. Qalan 30 faiz isə satışdan olur. Bizim qəzetimizin satışı kifayət qədərdir. Mən bunu əminliklə deyirəm. Bundan başqa, qəzet köşklərində çalışanların qəzetlə yaxından-uzaqdan əlaqələri yoxdur. Bu da çox ciddi problemdir. Başqa bir məsələni də deyim - mən bunu Rusiyada görmüşəm - otellər qəzetlərə abunə yazılırlar və bu qəzetləri qonaqlara pulsuz paylayırlar. Bu təcrübənin özü qəzet satışına xeyli təsir edə bilər. Rusiyada hətta, elitar restoranlarda belə qəzet stellajları düzülüb. Kim istəyir götürüb apara bilir, stellajda qəzet boşaldıqca da yerinə yenisi qoyulur. Bizdə bu təcrübəni də həyata keçirmək mümkündür. Eləmirlər. Ümumiyyətlə, qəzetə məcburi abunə yazılmaq ənənəsindən imtina etmək lazımdır. Onda artıq rəqabət yaranacaq, hansı qəzet oxunursa, o qəzet də qalacaq.

**- Bizdə rusdilli media kifayət qədərdir, bu rəqabət mühitinə davam gətirmək çətin deyil?**

- Biz rəqabətdən qorxmuruq. Mən bayaq dedim, bizim daimi oxucularımız, başqa media orqanlarından fərqli olaraq öz yolumuz, öz dəsti-xəttimiz var.

**- Son illər rus dilinə maraq xeyli artıb. Yəqin bu, qəzetin satışına da təsirsiz ötüşmür.**

- Əlbəttə təsir edir. Mən psevdopatriotizmi nə sevirəm, nə də qəbul edirəm. Amma bəzi adamların rus dili barədə səs-küy qaldırmaqlarını da bəyənmirəm. Birincisi, rus dili Azərbaycan dilini üstələyə bilməz. Çünki bu ölkənin rəsmi dili Azərbaycan dilidir və bütün yazışmalar da bu dildə aparılır. Hər bir rusdilli belə Azərbaycan dilini bilməlidir. Sadəcə, hansısa dairələr bu cür səs-küy qaldırmaqda maraqlıdırlar. Odur ki, bu dilin Azərbaycanda inkişafı hesab eləmirəm ki, təhlükəli olsun. Təbii ki, rus dilinin belə yayılması rusdilli oxucuların sayının artmasına da kömək edir. Bizim xalqımızın Rusiya ilə təması sıx olduğuna görə rus dilini bilməyimiz də faydalıdır. Rusiyada 2 milyona yaxın azərbaycanlı yaşayır. Azərbaycanlıların da ən çox getdikləri, işlədikləri ölkə Rusiyadır. Biz dünyada bizə qarşı aparılan informasiya müharibəsində də rus dilinin üstünlüyündən istifadə edib öz haqq səsimizi dünyaya çatdırmalıyıq. Yaddan çıxartmayaq ki, dünyada 380 milyon insan rus dilində danışır. Bu da sirr deyil ki, rus dilində yayılan materiallar dünyada daha çox oxunur.

**- Özünüz qəzetə məqalələr yazırsınız?**

- Əvvəllər yazırdım. İndi yazmıram. Mən, ümumiyyətlə, baş redaktorun qəzetə yazı yazmağını qəbul etmirəm. Baş redaktor hər şeydən əvvəl təşkilatçı olmalıdır. Bu qabiliyyətim olmasaydı, yəqin "Novoe vremya" da 20 il yaşamazdı.

**- Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondunun fəaliyyətini necə qiymətləndirirsiniz?**

- Təbii ki, qəzetlərin hazırda mövcudluğunu davam etdirməsində KİV DF-in rolu danılmazdır. KİV DF sayəsində kütləvi informasiya vasitələri yaşamağa davam elədi, biz də onun yaratdığı bu fürsətdən yararlanırıq. Deyim ki, bu həm də bizim haqqımızdır. Qəzetimizin yaşamasında əlbəttə yardımın da çox böyük önəmi var. Bütün bunlarla bərabər, mənim ən böyük arzum qəzetin özü-özünü təmin edə bilməsidir. Bax, onda siz dediyiniz mətbuata sahib ola bilərik.

**- "Novoe vremya"nın gələcəyi haqqında nə arzularınız var?**

- Bir arzum da var. Düzdür, yeri gəldi-gəlmədi hamı tez-tez deyir ki, gələn ili Qarabağda qeyd edək. Ancaq həqiqətən mənim həyatda ən böyük arzum budur ki, Ağdama, Şuşaya, Laçına, Kəlbəcər, bir sözlə işğal altındakı bütün torpaqlarımız azad olunsun, mən Qarabağ bölgəsində böyük bir media qrupu yaradım və fəaliyyətimi orda davam etdirim. Təki alınsın, mən Qarabağın ən ucqar kəndində də qəzet buraxmağa hazıram.

# Paşinyanın BMT çıxışının effekti sıfıra endirildi, ermənilər Məmmədyarovun istefası ətrafında müzakirə açdı...

**Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov BMT-nin Baş Assambleyasında çıxışı zamanı Paşinyanın çıxışını tamamilə darmadağın edən arqumentlər ortaya qoyub. Nazir bildirib ki, Azərbaycan münaqişənin tez bir zamanda siyasi yolla həll edilməsinə sadiq olaraq qalır:**



"Hazırda davam edən sülh prosesinin başlıca məqsədi Ermənistan tərəfindən başladılmış müharibənin nəticələrini aradan qaldırmaq, eyni zamanda, BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrində qeyd edildiyi kimi, işğalçı qüvvələrin Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal, qeyd-şərtsiz və tamamilə çıxması, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünün bərpa edilməsi və məcburi köçkünlərin öz evlərinə və mülklərinə qayıtmasıdır. Eyni zamanda, danışıqlar həmişə davam edə bilməz. Beynəlxalq ictimaiyyəti və öz xalqını yanıltmağa vaxt sərf etmək yerinə, Ermənistan status-kvonu saxlamaq cəhdlərinə son qoymalı və öz beynəlxalq öhdəliklərini yerinə yetirməlidir. Rəsmi Yerevan nə qədər tez öz dağıdıcı siyasi gündəminin perspektivlərinin çatışmazlığını anlasa, o qədər tez regionun bütün xalqları sülhdən, stabillikdən və əməkdaşlıqdan faydalana biləcək və Ermənistan öz təcavüzkar, düşmən siyasətinə görə hazırda üzləşdiyi ciddi siyasi, iqtisadi və sosial yükdən qurtula biləcək".

## *Zamin Abdullayev: "Məgər Məmmədyarov olmasa, Azərbaycan bu tələblərindən vaz keçəcək?"*

Bu çıxışın effektini azaltmaq üçün erməni KİV-i Məmmədyarov barəsində dezinformasiya tirajlamağa başlayıb. Onlar qeyd edirlər ki, guya Məmmədyarov tez bir zamanda istefaya göndəriləcəyini bildiyi səbəbindən belə danışıb. Xüsusilə də danışıqların davam etdirilə bilməyəcəyi ilə bağlı onun verdiyi açıqlama ətrafında müzakirə açırlar. Qeyd edirlər ki, Bakı heç bir kompromisə getmək istəmir. Hətta Məmmədyarovun danışıqlarda nümayiş etdirdiyi prinsipiallığı onun meydandan gedəcəyi ilə əlaqələndirirlər. Ermənilərin bu fitnəsi nəyə hesablanıb?

Politoloq Zamin Abdullayev qəzetimizə bildirdi ki, BMT sessiyasında Paşinyanın çıxışı və ona Elmar Məmmədyarov səviyyəsində verilən cavabla bağlı müxtəlif fikirlər səslənir: "Hətta bizim ölkədə belə bu məsələ ilə bağlı birmənalı möve yoxdur. Bilirsiniz ki, həmin sessiyada Azərbaycan dövlət başçısı səviyyəsində deyil, xarici işlər naziri ilə təmsil olunurdu. Bu baxımdan da Məmmədyarovun çıxışı Azərbaycan dövlətinin mövqeyini tam əks etdirir. Paşinyanın hansı mövzuda sərsəmləməsini gördük. Ümumiyyətlə, mövzuya aidiyyəti olmayan fikirləri səsləndirməklə, hətta Azərbaycandan kompromis, güzəşt gözlədiyini bildirdi. Dağlıq Qarabağın SSRİ-nin tərkibindən ayrılmaq hüququndan danışdı. Təbii ki, bu cür qeyri-peşəkar açıqlamaya Məmmədyarov sözbəsöz cavab verməli deyildi. Elmar Məmmədyarov Azərbaycanın mövqeyini sərt şəkildə bəyan etməklə, Paşinyanın bütün arqumentlərini heçə endirmiş oldu. Çünki Azərbaycanın bu məsələdəki mövqeyi uzun illərdir stabil qalır. Ermənilər bu məsələdə guya Məmmədyarovun istefaya göndəriləcəyi ilə manipulyasiya etmək istəyirlərsə, yanılırlar və çox gülünc görünürlər. Hətta Məmmədyarov həmin postda olmasa belə, Azərbaycanın Dağlıq Qarabağla bağlı mövqeyi dəyişməz olaraq qalacaq. Elmar Məmmədyarovdan əvvəl də həmin postu tutan diplomatlar olub. Onda da demişik və yenə də deyirik ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini tapmalıdır. Dağlıq Qarabağa Azərbaycanın tərkibində ən yüksək status verməyə hazırıq, BMT Təhlükəsizlik Şurasının qətnamələri məcburən icra olunmalıdır.

Məgər Məmmədyarov olmasa, Azərbaycan bu tələblərindən vaz keçəcək? Bəli, Məmmədyarov doğru olaraq deyib, danışıqlar nəticə vermir. Hanı nəticə? Bizim buna çox da dözmək fikrimiz yoxdur. Nəticəni haqqımız olan başqa vasitələrlə də əldə etməyə qadirik. Ermənilərin əndişəsi məhz bununla bağlıdır".

***Məhəmmədəli QƏRİBLİ***

# Ermənistanda yezidi kürdlərin sayını 60 mindən 20 minə endirib adını da qoyublar "kürdlərin evi"...

**Sentyabrın 29-da Ermənistanda yezidi "Tovuz mələk və yeddi mələk" ibadətgahı açılıb. Ermənistan parlamentinin sədri Ararat Mirzoyan öz "Facebook" səhifəsində bu açılışı "rəmzi və məntiqli" adlandırıb. Erməni saytlarının yaydığı məlumata görə, Ermənistanda açılan bu məbəd dünyanın ən böyük yezidi məbədidir.**



Mirzoyan yezidi kürdləri ilə ermənilərin birlikdə bir çox tarixi sınaqdan keçdiyini xatırladıb. O, "Ermənistan yezidi xalqı üçün bir evdir" deyib.

Məlumat üçün qeyd edək ki, sayı bir milyona yaxın olan yezidi kürdlərin əksəriyyəti Şimali İraqda, 20 mini isə Ermənistanda yaşayır. Yezidilərin dini olan yezidilik Zərdüştlük zəminində meydana gəlib və xristianlıq, islam və yəhudilik elementlərini özündə ehtiva edir. Yezidilikdə tovuzquşu kimi təsvir olunan Tovuz mələk mələklərin başıdır. Hər bir yezidi Tovuz mələk üçün gündə beş dəfə ibadət etməlidir.

O da məlumdur ki, Ermənistan hökuməti XX əsrin sonlarında azərbaycanlılara qarşı həyata keçirdiyi siyasətin eynisini ölkədəki digər milli azlıqlara qarşı da tətbiq edir. Onlara aid olan tarixi abidələr və mədəniyyət əsərləri planlı şəkildə məhv edilir. Digər azsaylı etniklər sıxışdırılır. Statistikaya görə, 1989-cu ilə qədər Ermənistanda 60 min yezidi kürd yaşayıb. Hazırda isə onların sayı 20 min nəfərdir. 1989-cu ildən sonra onların sayı azalmaqdadır. Ona görə də hansı evdən söhbət gedə bilər ki, 1989-cu ildə Ermənistanda 60 min yezidi kürd yaşadığı halda, hazırda onların sayı 20 min nəfər təşkil edir? O üzdən, ermənilər məbəd ucaltmaqla kimi aldadırlar?

## *Məhəmməd Əsədullazadə: "Yezidilərə bu ölkədə məbədin tikilməsi heç də etniklərə verilən dəyərdən irəli gəlmir"*

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadə buna bir neçə aspektdən yanaşdı: "Ermənistan monoetnik dövlətdir. Burada az sayda yezidilər, assuriyalılar və yunanlar var. Yezidilərə bu ölkədə məbədin tikilməsi heç də etniklərə verilən dəyərdən irəli gəlmir. Məsələ ondadır ki, az sayda olan yezidilər bu gün Ermənistanda çətin şəriatdə və ayrıseçkiliyə məruz qalaraq yaşayırlar. Belə olmasaydı, onların sayı bu qədər ilbeil azalmazdı. Bunda əsas məqsəd yezidilər vasitəsilə ölkələrinin guya etnik müxtəlifliyini nümayiş etdirməkdir. Ermənistan heç də bu məbədi onları sevdiklərinə görə tikməyib. Bunda digər məqsəd də var. O da ondan ibarətdir ki, İraqdakı yezidiləri cəlb edib işğal olunmuş ərazilərdə məskunlaşdırmaq məqsədi güdürlər. Ancaq bu vasitələrlə onları cəlb etmək mümkün deyil. Öz milləti ölkəni yoxsulluqdan tərk edən bir dövlət yezidilərə necə qucaq aça bilər? Sadəcə, burada məkrli plan var. Ermənistan bunu etməklə Azərbaycana qarşı mənfur planı var. Qeyd etdiyim kimi, onları Qarabağda yerləşdirmək istəyirlər. Ümumiyyətlə, yezidi kürdlər bu gün Ermənistanın siyasi alətinə çevrilirlər. Etnik bir qrup olan bu tayfadan Ermənistan özünə müsbət imic qazanmaq istəyir.

### *"Ermənistan özünə müsbət imic qazanmaq istəyir"*

Məncə, yoxsul və siyasi cəhətdən narahat olan bir ölkədə yezidilərin yaşaması mümkün olmayacaq. Zamanla onlar da buraları birdəfəlik tərk edəcəklər. Ermənistan bu köçün qarşısını almaq üçün onlara məbəd tikir və İraqdan olan yezidilər vasitəsilə ölkədəki əhali azalmasını önləmək istəyir".

***Vidadi ORDAHALLI***

**Dəyərli oxucuların diqqətinə çatdırmaq istəyirəm ki, 1993-cü ildən başlayaraq indiyə qədər ölkədə Azərbaycan Respublikasının dövlət ideologiyası - azərbaycançılıq məfkurəsi ilə bağlı çoxsaylı kitab və məqalələr yazılıb, dəyirmi masalar və konfranslar keçirilib, bu sahədəki mövcud vəziyyət və gələcək işlər haqqında mətbuat səhifələrində geniş müzakirələr aparılıb.**

## *Heydər Əliyev müasir azərbaycançılıq ideologiyasının banisidir*

# Əli Həsənov hakimiyyəti milli ideologiya yaratmamaqda günahlandıranlara tutarlı cavab yazdı...

*"Milli mənsubiyyət hər bir insan üçün onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!"*

***HEYDƏR ƏLİYEV***

Görkəmli dövlət xadimi, ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin azərbaycançılıq ideologiyası, onun ölkəmizdə tətbiqi ilə bağlı çoxsaylı çıxışları və tövsiyələri olub. Həmin çıxış və tövsiyələr dövlət qurumları və müvafiq siyasi-ideoloji strukturlar tərəfindən mütəmadi olaraq öyrənilir, irəli sürülən müddəa və prinsiplər nəzərə alınır, ictimai həyatımızın bütün sahələrində tətbiq edilir. Lakin nədənsə bütün digər fəaliyyət sahələrində olduğu kimi, ideoloji sahədə də özlərini hələ də real olaraq tapa bilməyən, öz ətraflarında ciddi bir siyasi-ideoloji boşluq hiss edən bəzi "siyasətçilər" yenə Azərbaycan hakimiyyətini milli ideologiya yaratmamaqda günahlandırır və bu sahə ilə bağlı yalan informasiya yayaraq cəmiyyəti çaşdırmağa çalışırlar. Odur ki, yenidən milli ideologiya və onun Azərbaycanda tətbiqi mövzusuna qayıtmaq istəyirəm.

Bu fikirlər Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor Əli Həsənovun "Heydər Əliyev müasir azərbaycançılıq ideologiyasının banisidir" sərlövhəli məqaləsində yer alıb. AZƏRTAC məqaləni təqdim edir.

Məlum olduğu kimi, müasir dünyada irili-xırdalı, təxminən 5000-dən artıq xalq mövcud olsa da, BMT iqamətgahında bayrağı dalğalanan müstəqil dövlətlərin sayı bu gün 200-dən bir qədər çoxdur. Azərbaycan dövlətinin bu sırada öz yerini tutması xalqımızın böyük tarixi nailiyyəti kimi qiymətləndirilir.

Hər bir xalqın müstəqil dövlət quruculuğu yolu bir sıra mühüm daxili və xarici amillərlə şərtlənir. Azərbaycan xalqı əlverişli tarixi şəraitdən və özünün siyasi, iqtisadi, mədəni və intellektual potensialından istifadə edərək XX əsrin sonunda çoxdankı istiqlal arzusunu yenidən gerçəkləşdirdi. Lakin müstəqillik dövrünün qısa tarixi ümummilli lider Heydər Əliyevin belə bir fikrini təsdiq edir ki, "müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi və əbədi olması bundan da çətindir". Bu illər ərzində Azərbaycanın keçdiyi yolun təhlili göstərir ki, dövlət qurmaq kimi çətin, mürəkkəb və şərəfli missiyaya o dövrdə möhkəm iradəli, geniş və qlobal dünyagörüşlü, xalqın böyük dəstəyinə malik və onun milli liderinə çevrilmiş şəxs başçılıq edə bilərdi və belə də oldu. XX əsrin 90-cı illərinin sonunda Azərbaycanda Ümummilli Lider mövqeyinə yüksələ bilən və bu işlərin öhdəsindən gəlmək iqtidarında olan yeganə şəxsiyyət məhz Heydər Əliyev idi.

Heydər Əliyevin əməli və nəzəri fəaliyyətinin mühüm bir hissəsini onun milli dövlətçilik təlimi, milli-mənəvi və ideya-siyasi dünyagörüşü təşkil edir. Onun bu sahə üzrə toplanmış zəngin irsi təkcə bugünkü ictimai-siyasi dairələr üçün deyil, həm də gələcək nəsillər, Azərbaycana rəhbərlik etmək istəyən bütün liderlər üçün örnək olmağa layiqdir. Müasir Azərbaycanın möhkəm özülünü qoymuş bu tarixi şəxsiyyətin ideya dünyası onun davamçılarının yoluna həmişə işıq salacaq.

Heydər Əliyevin ideya və fikirləri, həyata keçirdiyi siyasət Azərbaycan şəraitində sosialist ictimai-iqtisadi sistemindən yeni cəmiyyətə keçidin elmi-nəzəri və konseptual əsaslarını yaratmışdır. İmperiya və sosialist sistemindən azad olaraq müstəqillik yolu tutmuş, lakin region və dünya güclərinin üst-üstə düşməyən, kəsişən maraqları ilə üz-üzə qalmış, qloballaşan dünyada öz yerini axtaran, milli mənafelərini qorumağa çalışan gənc Azərbaycan üçün Heydər Əliyevin dövlətçilik təlimi əsl fəaliyyət strategiyası və proqramı idi. Uzun illər öz dövlətçiliyindən və milli-mənəvi köklərindən ayrı salınmış, milli və dövlətçilik maraqları tapdanmış Azərbaycan xalqının özünəqayıdış və özünütəsdiqində Heydər Əliyevin əməli fəaliyyəti və ideya-siyasi baxışlarının çox böyük rolu olub.

Heydər Əliyev 1993-cü ildə yenidən Azərbaycanın rəhbərliyinə qayıdarkən bitkin dövlət konsepsiyasına malik idi. Bu konsepsiyanın bəzi tezisləri onun 1992-ci ildə Azərbaycan ziyalılarına ünvanlanmış müraciətində və elə həmin il qəbul edilmiş Yeni Azərbaycan Partiyasının proqramında öz əksini tapıb. Bu müraciət - proqramda dövrün real ictimai-siyasi vəziyyəti, müstəqil dövlət quruculuğunun şərtləri, regionumuzda və beynəlxalq aləmdə cərəyan edən hadisələrin və yaşanan proseslərin xarakteri, Azərbaycanın daxili durumu, hökm sürən iqtisadi, siyasi böhran, ondan çıxış yolları və digər taleyüklü məsələlər tezislər şəklində öz ünün əsl siyasi qiymətini alıb.

Ulu öndər Heydər Əliyev hər bir dövlətin varlığının əsasını təşkil edən iqtisadi inkişafı ölkə həyatının ən vacib vəzifəsi hesab edirdi. O öyrədirdi ki, dövlət qurarkən cəmiyyətin yaşam tərzini, ictimai həyat normalarını, idarəçiliyi, qanunçuluğu, sabitliyi, vətəndaş birliyini, milli həmrəyliyi, beynəlxalq təhlükəsizliyi və s. vəzifələri o zaman dolğun və davamlı təmin etmək olar ki, dövlətin iqtisadiyyatı güclü olsun və qarşıya qoyulmuş məqsədlərə cavab versin.

Heydər Əliyev dövlət quruculuğunun bütün sahələrində insan amilinə, milli və dövlətçilik təfəkkürü güclü olan kadrlara ciddi önəm verirdi, hər bir Azərbaycan vətəndaşını milli əxlaqa və güclü iradəyə malik, qlobal və azad düşüncəli, təşəbbüskar, fəal, ölkədaxili və beynəlxalq proseslərdən baş çıxara bilən, təhsilli, ədalətli, Vətəni və xalqı üçün gərəkli insan kimi görmək istəyirdi.

Dahi şəxsiyyət Heydər Əliyev Azərbaycan Respublikasına on illik rəhbərliyi dövründə nəinki müstəqil Azərbaycan dövlətini qurdu və gələcək inkişafının hərtərəfli sağlam təməlini qoydu, eyni zamanda, ölkə vətəndaşlarını səfərbər edən, xalqımızı beynəlxalq aləmdə vahid amal, əqidə, məqsəd və məram ətrafında birləşdirən milli təlim - azərbaycançılıq ideologiyasını yaratdı. 1993-cü ildə Heydər Əliyev hakimiyyətə qayıdanda Azərbaycanda keçmiş kommunist ideologiyasından imtina edilmişdi. Lakin xalqı müstəqil dövlətçilik ətrafında birləşdirə bilən, azərbaycanlıların kimliyini, yaratdığı dövlətin xarakterini izah edən, milli-mənəvi dəyərlərini qoruyub saxlayan və inkişaf etdirən, ölkə vətəndaşlarını öz ətrafında səfərbər edərək gələcəyə aparan nə vahid ideya-siyasi təlim, nə də funksional idarəçilik sistemi yaradılmışdı. Keçmişin bütün zəngin irsindən, o cümlədən elmi, intellektual, mənəvi, ictimai dəyərlərindən total şəkildə imtina meyli Azərbaycanda, sözün həqiqi mənasında, ciddi ideoloji boşluq yaratmışdı. Cəmiyyətin ideyasızlaşdırılması cəhdi bir tərəfdən keçmiş kommunist rejiminə nifrətdən qaynaqlanırdısa, digər tərəfdən 1991-1993-cü illərdə Azərbaycanı idarə edən rəsmilərin aydın məqsəd və məramının yoxluğundan, rəhbərlik etdikləri dövlətin siyasi, iqtisadi, mədəni, mənəvi inkişafı haqqında dolğun təsəvvürə malik olmamalarından irəli gəlirdi.



Heydər Əliyevin dövründə Azərbaycan vətəndaşlarını vahid amal, ideya və məqsəd ətrafında birləşdirəcək milli ideologiyanın yaradılması dövlət siyasətinin prioritetinə çevrildi.

***Əli Həsənov***
***Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor***

*Məqalə ilə tam şəkildə baki-xeber.com saytında tanış ola bilərsiz.*

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycan Ermənistana qarşı ikinci - ən təsirli təzyiq vasitəsini də hərəkətə gətirəcək...

**Hələ ki, heç bir nəticəsi olmayan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqların bundan sonra davam etdirilməsinə, ekspertlərin böyük əksəriyyətinin fikrincə, hansısa lüzum yoxdur. Çünki reallıq bundan ibarətdir ki, işğalçı Ermənistan hansısa təzyiq görməyənə qədər təcavüz siyasətinə son qoymayacaq. Ermənistana təzyiqin isə iki forması mümkündür.**

Bunlardan biri beynəlxalq ictimaiyyətin, xüsusən də ATƏT-in Minsk Qrupunun təzyiqləridir. Amma ötən dövr ərzində qeyd olunan istiqamətdə hansısa əməli addım atılmayıb.

İkinci, özü də daha təsirli və real təzyiq isə Azərbaycan ordusunun zəbt edilmiş ərazilərdə hərbi əməliyyatlara başlamasıdır. 2016-cı ilin aprel olayları belə təzyiqlərin Ermənistan üçün çox keçərli olduğunu göstərir. Məhz həmin döyüşlərdən sonra buna qədər danışıqlardan qaçan Ermənistan dərhal masa arxasına qayıdıb Azərbaycanla danışıqlara başladı. Hadisələrin indiki inkişaf axarı da bunun belə olacağını qətiyyən istisna etmir. Çünki Ermənistanda mövcud Nikol Paşinyan iqtidarının Qarabağ məsələsində mövqeyi savaşdan başqa seçim yeri qoymur. Elə Paşinyanın BMT Baş Assambleyasının 74-cü iclasında çıxışı zamanı Qarabağ münaqişəsinə daitr əvvəlki sərsəm mövqeyini yenidən təkrarlaması da bu arqumenti əsaslı surətdə gücləndirir. Düzdür, Paşinyanın çıxışı Ermənistanın özündə də istehza ilə qarşılanır. Məsələn, politoloq Qaqik Hambaryan bu xüsusda bildirir: "Paşinyanın BMT Baş Assambleyasının 74-cü iclasında çıxışı zamanı zalın yarıboş olmasını nəzərə alsaq, çıxış o qədər də önəmli olmayıb". Politoloqun sözlərinə görə, "kulis" görüşlər böyük fayda verə bilərdi, lakin onlar yalnız NATO-nun baş katibi və Hindistan baş nazirinin görüşləri ilə məhdudlaşdırıldı: "Bununla Paşinyan hər hansı ikitərəfəli əhəmiyyətli görüş də keçirə bilmədi. Mən Paşinyanın Qarabağ məsələsində dedikləri ilə bağlı nəyi nəzərdə tutduğunu bilmək istərdim. Bu utopiyadır və həyata keçirilməsi mümkünsüzdür, çünki Azərbaycan heç nəyi güzəştə getməyəcək".

Ümumiyyətlə, ekspertlər bu qənaətdədir ki, Paşinyanın sərsəmləmələri, sadəcə, Qarabağ münaqişəsinin tezləşməsinə rəvac verə bilər. Elə Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov da həmin BMT Baş Assambleyasının 74-cü sessiyasının ümumi müzakirələrində bəyan edib ki, danışıqlar sonsuza qədər davam edə bilməz: "Azərbaycan münaqişənin tezliklə siyasi yolla həllinə sadiqdir. Eyni zamanda, danışıqlar sonsuzadək davam edə bilməz və güc tətbiqi, işğal və etnik təmizləmə nəticəsində yaranmış vəziyyətin davam etməsinə və saxlanmasına xidmət etməməlidir. Beynəlxalq ictimaiyyəti və öz xalqını yanıltmaq səylərinə vaxt itirmək əvəzinə, Ermənistan dayanıqlı olmayan status-kvo vəziyyətini uzatmaq üçün faydasız cəhdlərindən əl çəkməli və beynəlxalq öhdəliklərinə əməl etməlidir. Öz destruktiv siyasi gündəliyinin perspektivlərinin olmadığını İrəvan nə qədər tez başa düşərsə, bir o qədər tez bölgənin bütün əhalisi sülh, sabitlik və əməkdaşlıqdan faydalanacaq və Ermənistanın bölgədə yürütdüyü təcavüzkar və düşmən siyasəti səbəbindən üzləşdiyi ciddi siyasi, iqtisadi və sosial problemləri dəf etmək şansları daha çox olacaq".

Bütün bunlardan aydın görünür ki, Bakı daha İrəvanın nazı ilə oynamaq niyyətində deyil. Ermənistanın indiki destrkutiv mövqeyini davam etdirməsi, yuxarıda qeyd olunduğu kimi, savaşın tezləşməsindən başqa heç nəyə xidmət etmir. Bunu rus hərbi ekspert Vladimir Yevseyev də xüsusi olaraq vurğulayır:"Düşünürəm ki, müharibə təhdidi ümumiyyətlə aradan qalxmayıb, təhlükə var". Onun sözlərinə görə, yaxın gələcəkdə bu məsələ ətrafında razılaşma gözlənilmir, bu kimi fürsətlər bundan əvvəl olub, lakin istifadə edilməyib, hazırda isə belə bir imkan sadəcə yoxdur: "Ermənistan yaxşı anlayır ki, Azərbaycan ərazi bütövlüyünün pozulmasına yönələn istənilən addım və fikirlərə qarşı çıxacaq, çünki Azərbaycan münaqişəni yalnız ərazi bütövlüyü prinsipində həll etmək istəyir. Əminəm ki, Azərbaycan danışıqlar prosesinin aparılması ilə yanaşı, yeni Ermənistan və onun ətrafında baş verən hadisələrin inkişafını izləyir. Qeyd etdiyim kimi, müharibə təhdidi ümumiyyətlə aradan qalxmayıb, təhlükə var. Amma burada mütləq nəzərə alınmalıdır ki, Azərbaycan mühüm istiqamətlər, o cümlədən hərbi müstəvidə kifayət qədər güclənib".

Eyni mövqeni Belarusdan olan hərbi ekspert Leonid Spatkay da bölüşür. O bildirir ki, müasir silahlara malik Azərbaycan ordusu Qarabağda istənilən nəticəyə asanlıqla nail ola bilər: "Azərbaycan son illərdə kifayət qədər müasir hərbi texnikalar alıb. Elə Belarus Təhlükəsizlik Şurasının katibi Stanislav Zasın Azərbaycana son səfəri çərçivəsində Belarus silahlarının bu ölkəyə tədarükü və Azərbaycandan neft alınması imkanları müzakirə olunub". Ekspert, Belarusla yanaşı, Rusiyanın da Azərbaycanla hərbi-texniki və digər sahələrdə əməkdaşlığa üstünlük verdiyini bildirib: "Belarus və Rusiya Ermənistanı KTMT-dən qovar, nəinki Azərbaycanla hərbi-texniki əməkdaşlığı pozacaq addım atarlar. Bu baxımdan, Belarusun Azərbaycana təklif edəcəyi bir çox şey var. Bu yalnız "Polonez" hava hücumundan müdafiə sistemləri ilə bağlı deyil, Belarus Azərbaycana istənilən pilotsuz uçan aparatları (PUA) zərərsizləşdirmək gücündə olan silahları da sata bilər. Azərbaycanın hazırda malik olduğu hərbi texnika, əslində onun Ermənistan üzərində böyük üstünlük əldə etməsinə gətirib çıxarıb. Aydındır ki, Qarabağ danışıqları nəticəsiz qaldığı halda bu texnikadan istifadə olunacaq. Hadisələr də elə bu istiqamətdə inkişaf edir".

Aydındır ki, yeni Qarabağ savaşının önlənməsi yolu yalnız Ermənistanın yaxın tezlikdə danışıqlarda konstrkutiv mövqe nümayiş etdirməsindən keçir. Yəni Azərbaycanın məsələyə hərbi yolla müdaxiləsini yalnız Ermənistan tərəfinin sülh danışıqlarına hazır olması şərti dayandırır. Qarşı tərəfdə sülh məramının olmaması isə Azərbaycana güc yolu ilə Ermənistan ordusunu öz ərazisindən qovması əməliyyatına başlamaqdan başqa çıxış yolu qoymur. Başqa sözlə, danışıqların dalana dirənməsi gərginliyi və hərbi əməliyyatların bərpası risqini artırır. Rusiyalı hərbi ekspert İqor Korotçenko da bildirir ki, Ermənistan siyasi rəhbərliyinin Qarabağla bağlı məsuliyyətsiz bəyanatları bu gün savaşı körükləməkdən başqa heç nəyə xidmət etmir: "Artıq məlumdur ki, İrəvanda mövcud Qarabağ yanaşması aparılan danışıqlar prosesinə böyük ziyan vurub. Halbuki, danışıqların pozuslmasından ən çox Ermənistan özü zərər görəcək. O baxımdan ki, gec-tez Ermənistan Azərbaycan torpaqlarından qoşunlarını çıxarmalı olacaq. Heç olmasa, ilkin olaraq ətraf 7 rayonu boşaltmalıdırlar. Doğma yurdlarından, evlərindən qovulan azərbaycanlı əhali Dağlıq Qarabağa qayıtmalıdır. Eləcə də Dağlıq Qarabağın mübahisəsiz Azərbaycanın ərazisi hüdudlarında olması şərtilə bu regiona xüsusi status verilməsi mümkündür. Fikrimcə, Paşinyan bunu yaxşı başa düşür. Ona görə də, onun mövcud mövqeyi başadüşülən deyil, o, ölkəni yeni savaşa sürükləyir". Rusiyalı hərbi ekspert beynəlxalq ictimaiyyətin, o cümlədən münaqişənin nizamlanmasında vasitəçi olan ATƏT-in Minsk Qrupu həmsədrlərinin fəaliyyətinin nəticəsiz olmasının da savaşı yaxınlaşdırıdığını xüsusi vurğulayır. Onun qənaətincə, Azərbaycan bu məsələdə indiyə qədər təmkinli mövqe nümayiş etdirib. Amma artıq Ermənistan rəhbərliyinin son bəyanatları məsələyə təmkinli yanaşılmasını da mümkünsüz hala gətirir və belə vəziyyətdə savaşın yenidən başlanması an məsələsinə çevrilir. Onun fikrincə, Ermənistan və Azərbaycan arasında yeni müharibənin baş vermə ehtimalının yüksək olmasını artıq beynəlxalq ictimaiyyətdə də qəbul edirlər: "Münaqişə dondurulmuş şəkildə, əlbəttə ki, mövcud ola bilər, lakin unutmayın ki, Azərbaycan torpaqlarının 20%-ni itirib. Və mən Azərbaycanın bundan sonra da bu vəziyyətlə barışacağına əsas görmürəm. Niyə o zaman öz silahlı qüvvələrinə böyük pullar yatırır? Təkcə Rusiyadan Azərbaycan xeyli sayda hücum silahları alıb: təqribən 200 ədəd T-90 tankı, ağır odsaçan sistemlər, "Smerç" reaktiv yaylım atəşi sistemi və başqa silahlar. Başqa ölkələrdən alınan silahları da bura əlavə etsək, mənzərə bir qədər də aydın olar. Bu mənada, qüvvələr nisbətinə gəldikdə bir faktı qeyd etmək bəs edər ki, hazırda Azərbaycan texnikanın sayına görə postsovet məkanında Rusiyadan sonra ikinci yeri tutur. Son hərbi təlimlər şəxsi heyətin hazırlıq səviyyəsinin də yüksək olduğunu göstərir. Bu mənada, Ermənistanın Azərbaycanla hərb sahəsində üz-üzə gəlməkdənsə, danışıqlarda razılıq əldə etməsi İrəvan üçün daha məqbul olardı. Amma təəssüf ki, biz bunu müşahidə etmirik".

Həqiqətən də real vəziyyət göstərir ki, hazırda danışıqlar prosesinin dalana dirənməsi alternativ variant üzərində, yəni torpaqların hərb yolu ilə azad edilməsi məsələsini xeyli aktuallaşdırıb. Bu, həm Azərbaycan Müdafiə Nazirlyinin qoşun birləşmələrinin hərbi təlimləri yüksək intensivliklə davam etdirməsində, həm də ölkə rəsmilərinin Qarabağ danışıqlarının səmərəsiz olmasını açıq bəyan etməsində yaxşı sezilir. Qeyd edilənlərdən belə hesab oluna bilər ki, Azərbaycan topraqların geri qaytarılması üçün yeganə yolunu müharibədə görür və bu istiqamətdə proses son mərhələyə qədəm qoyub. Yəni yaxın tezlikdə yeni Qarabağ savaşının başlanması tamamilə mümkündür və bu dəfə müharibə son nəticəyə qədər davam edəcək.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Ölkədə həyata keçirilən islahatlar fonunda hökumətin atdığı mühüm addımlardan biri də problemli kreditlərin həlli ilə bağlıdır. Çünki belə kreditlərlə bağlı yaranan məsələnin həlli bankların iqtisadiyyatda iştirak payını artırır və iqtisadi inkişafı sürətləndirir.**

# Prezidentin fevral qərarı, bankların yanlış kursu - problemli kreditlər yeni artımda...

*Kommersiya bankları dövlətin fevraldakı jestini hələ düzgün qiymətləndirə bilməyib...*




Kredit probleminin həlli istiqamətində hökumətin atdığı addımlar fonunda banklardan əsas gözləntisi isə onların real iqtisadiyyatda xüsusi çəkisinin artması ilə bağlıdır. Amma görünən budur ki, banklar hələ də hökumətin bu istiqamətdə onlara etdiyi güzəşt və yardımları düzgün qiymətləndirə bilmir.

Bu barədə danışmazdan öncə xatırladaq ki, bu il fevralın 28-də ölkə başçısı problemli kreditlər məsələsinin həllilə bağlı fərman imzalayıb. Həmin fərmanla vətəndaşların banklardakı 10 min dollaradək problemli kreditlərinin qapanması üçün dövlət büdcəsindən 700 milyon manatdan artıq vəsait ayrılıb. Həmçinin, banklara 682 milyon manat məbləğinədək dövlət zəmanəti ilə güzəştli kredit verilməsi, bankların valyuta mövqeyinin pisləşməsinin qarşısını almaq məqsədilə ayrılan kreditin hesabına onların müraciəti əsasında 215 milyon dollar dəyərinədək xarici valyutada ifadə olunub, illik faiz dərəcəsi 0,5 faiz olmaqla qiymətli kağızlar verilməsi reallaşdırılıb. Bütün bunların əsas məqsədi problemli kreditlərin həlli istiqamətində əsaslı dönüş etmək, bankların iqtisadiyyatda rolunu gücləndirmək, eləcə də vətəndaşların bu sahədə çətinliklərinin aradan qaldırılmasına nail olmaq idi. Amma görünən həm də budur ki, banklar dövlətin bu jestini hələ dəlayiqincə qiymətləndirə bilmir.

Məsələ burasındadır ki, banklar hələ də real sektordan uzaq qaçırlar. Eyni zamanda, onların əvvəlki kimi istehlak kreditinə meyllənməsi yenidən problemli kreditlərin artmasına rəvac verib. Mərkəzi Bankın açıqladığı məlumatlardan aydın olur ki, ötən ildən etibarən ev təsərrüfatlarına verilən istehlak kreditlərinin həcmi artır. Hesablamalar göstərir ki, cari ilin 8 ayında belə kreditlər təxminən 11 faiz artıb. Halbuki, hökumətin xüsusi maraqlı olduğu biznes kreditləri, real sektorda kreditlərdə artım qeydə alınmayıb. Bu vəziyyət yenidən proğblemli kreditlərin artımına rəvac verir. Mərkəzi Bankın məlumatına əsasən, artıq ölkədə vaxtı keçmiş kreditlərin məbləği bu il sentyabrın 1-nə 1 milyard 491,3 milyon manat təşkil edib. Bu, avqustun 1-i ilə müqayisədə 0,3% çoxdur. Ümumiyyətlə, problemli kreditlər iyul ayından bəri yenidən artım nümayiş etdirir. Avqustun sonuna vaxtı keçmiş kreditlərin xüsusi çəkisi 10,8% olub. Hökumətin müdaxiləsindən sonra problemli kreditlərin həcmi azalsa da, indi bankların kredit siyasəti əvvəlki kimi artıma rəvac verir.

Belə vəziyyət həm bankların özləri, həm də iqtisadiyyat üçün ciddi təhdidlər yaradır. Halbuki, dövlət tərəfindən həyata keçirilən tədbirlərin əsas hissəsi ona yönəlib ki, banklar daha çox real sektorla işləsinlər. Yəni banklar sahibkarlara vəsait versinlər, daha çox qeyri-neft sektoruna investisiya yatırsınlar. Amma reallıq budur ki, banklar sahibkarlıq subyektlərinə müəyyən qədər vəsait versələr də, daha çox yüksək faizlə kredit verməkdə maraqlıdırlar. Bunun üçün ən yaxşı bazar sırf istehlak kreditləridir. Elə bundan irəli gəlir ki, son dövrlər istehlak kreditlərinin həcmi ümumi iqtisadiyyata qoyulan kreditlərin həcmi içərisində 40 faizi ötmək üzrədir. Yəni banklar daha çox vəsait əldə etmək üçün istehlak kreditləşməsinə yönəlirlər. Ekspertlər bildirir ki, bankların yenidən istehlak kreditlərinə maraq göstərməsi ciddi təhdidlər yaradır. İlk növbədə ona görə ki, bu, real sektorun kreditlərə olan tələbinin ödənilməsinə imkan vermir. Digər tərəfdən, istehlak kreditləri problemli kreditlərin artımının əsas mənbəyi sayılır. Ona görə də istehlak kreditlərinin həcminin artması risqlidir. Bu zaman banklar həm də xarici şoklara reaksiya verə bilmir, əhalinin gəlirlərinin strukturunda dəyişiklik baş verdiyi halda problemli kreditlərin həcminin artması müşahidə olunur.

Real vəziyyətdə tədqiqatlar həm də onu göstərir ki, problemli kreditlərin həcminin artmasında bankların məsuliyyəti indi daha çoxdur. Belə ki, Mərkəzi Bank kreditlərin verilməsi ilə bağlı sistemi elektronlaşdırıb. Hər bir kommersiya bankı həmin sistemə daxil olaraq, orada olan məlumat əsasında kredit vermək barədə qərar qəbul edir. Təəssüf ki, kommersiya banklarında bu prinsiplər gözlənilmədiyi üçün kreditin qaytarılması ilə bağlı çətinlik və problemlər yenidən artır. Digər tərəfdən o da faktdır ki, problemli kreditlərin yaranmasının başqa bir səbəbi kredit faizlərinin yüksək olmasıdır. Yəni vətəndaş kredit götürür, amma faizlər yüksək olduğu üçün həmin krediti müəyyən müddətdən sonra geri qaytarmaq mümkün olmur. Bu baxımdan faizlərin yüksək olması heç də kommersiya banklarının gəlir imkanlarını artırmır, əksinə, problem həcminin artmasına səbəb olur. Düzdür, vətəndaşların da problemli kreditlərin böyüməsində rolu var. Belə ki, bəzi vətəndaşlar öz ödəmə qabiliyyətini yoxlamadan kredit alırlar. Amma əsas məsuliyyət birbaşa bankların üzərinə düşür. Məsələnin həlli üçün hesab edilir ki, ilk növbədə Mərkəzi Bankın istehlak kreditləri üzrə ehtiyat normasına yenidən baxması və ehtiyat norması ilə bağlı şərtlərin daha da ağırlaşdırılması məqsədəuyğun olardı. Eləcə də bankaların faiz dərəcələrini azaltması üçün addımlar atılmalıdır. Əks təqdirdə problemli kreditlər məsələsi yenidən böyük problemə çevriləcək. Xatırladaq ki, belə kreditlər, eləcə də kredit faizləri məsələsi dəfələrlə iqtisadçılar, maliyyəçilər tərəfindən qaldırılıb, parlamentdə də bu məsələ gündəmə gətirilib. Amma görünən budur ki, inzibati tədbirlər olmadan banklar müvafiq addımlar atmağa tələsmir. O səbəbdən inzibati tədbirlər mexanizminin yaxın tezlikdə hazırlanıb icraya yönəldilməsi vacib sayılır.

**_Nahid SALAYEV_**

**Polisin fəaliyyətinin səmərəlilik əmsalı cəmiyyətin təhlükəsizlik səviyyəsi ilə ölçülür. Polis bu gün ölkədə daxili sabitliyin və asayişin qorunması işini uğurla davam etdirir. Polis təkcə cinayətlərin açılmasında deyil, həm də risq qrupuna daxil olan - münaqişəli ailələrin, çətin tərbiyə olunan uşaqların, narkomaniya və yol hərəkəti təhlükəsizliyinə qarşı mübarizədə profilaktika, maarifləndirmə işinin genişlənməsi ilə bağlı fəal iş aparır.**

# Son aylarda polis-vətəndaş münasibətlərində sosial məmnunluğu artıran yeni layihələr...

## *Seyid Camal Əzimbəyli: "DİN tərəfindən həyata keçirilən yeni layihələr cəmiyyətdə sosial məmnunluğun daha da artmasına xidmət edir"*




Bu istiqamətdə uğurların əldə edilməsi polis-vətəndaş həmrəyliyindən çox asılıdır. Görünən odur ki, bu istiqamətdə vətəndaşların polisə etibarı getgedə artır.

Diqqətçəkən məqamlardan biri də ondan ibarətdir ki, son aylar polis-vətəndaş münasibətlərində sosial məmnunluğu artıran yeni layihələrin həyata keçirilməsinin şahidi oluruq. Bu, müxtəlif formalarda özünü göstərir. Bütün bunlar vətəndaşların böyük rəğbətinə səbəb olur. Məsələn, ötən ilin mart ayından Daxili işlər nazirinin əmrilə piyadalar tərəfindən yol hərəkəti qaydalarının pozulmasının qarşısının alınması məqsədilə Bakı şəhərinin rayon polis idarələrinin, eləcə də respublikanın digər şəhər və rayon polis orqanlarının post-patrul xidməti əməkdaşlarına yol-patrul xidməti inspektorlarına aid olan səlahiyyətlər verilib. O vaxt belə bir qərarın verilməsinə ehtiyac var idi. Lakin post-patrul xidməti əməkdaşlarının qayda pozanları saxlayaraq protokollar tərtib etməklə onları cərimələmələri piyadaların vaxt itkilərinə, bəzən də narazılıqlarına səbəb olurdu. Bütün bunları nəzərə alan Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov bu günlərdə müvafiq əmr imzalayıb. Əmrə əsasən, post-patrul nizami hissələri əməkdaşlarına verilmiş yol patrul xidməti inspektorlarına aid olan səlahiyyətlərə xitam verilərək, qanunla müəyyən olunmuş vəzifələrinin icrasını davam etdirmək üçün onlar daimi xidmət yerlərinə qaytarılıblar. Bundan başqa, Daxili işlər naziri şəxsiyyət vəsiqələrinin verilməsi sahəsində vətəndaş məmnunluğunun artırılması ilə bağlı əlavə tədbirlər barədə əmr imzalayıb. Əmrə əsasən, noyabr ayının 1-dən ərazi polis orqanlarının və "ASAN xidmət" mərkəzlərində fəaliyyət göstərən Daxili İşlər Nazirliyinin qeydiyyat məsələləri qurumlarının əməkdaşları tərəfindən Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi yaşayış yeri üzrə qeydiyyatdan asılı olmayaraq veriləcək.

Məlum qərar ölkə ictimaiyyətinin böyük rəğbətinə səbəb olub. Məsələ ondadır ki, bu gün paytaxtda ölkənin müxtəlif rayonlarından gəlmiş vətəndaşlar əmək fəaliyyəti ilə məşğuldurlar. Məlum qərardan sonra şəxsiyyət vəsiqəsini dəyişməklə bağlı zərurət ortaya çıxanda buna görə vətəndaşın qeydiyyatda olduğu rayona getməsinə ehtiyac qalmayacaq. Çox rahat şəkildə paytaxtın istənilən "ASAN xidmət" mərkəzində bununla bağlı problemlər həll ediləcək.

*"Son aylar verilən bir sıra qərarlar, birmənalı olaraq, əhalinin mənafeyinə xidmət edir"*

Digər tərəfdən, vətəndaşları narahat edən şikayətlərin baxılmasına diqqət daha da artıb. Polis orqanları sözügedən məsələlərlə bağlı mümkün olan qədər maksimum şəkildə vətəndaşlara yardım edirlər. Daxili işlər nazirinin regionlara ənənəvi səfərləri və bölgələrdə vətəndaşların qəbulu davam edir. Görüşlər zamanı vətəndaşların problemləri yerindəcə həll edilir. Ümumilikdə, görülən işlər operativ şəkildə mediada işıqlandırılır. Medianı maraqlandıran məsələlər, sorğular çevik formada cavablandırılır. Təbii ki, bütün bunlar cəmiyyətdə polis-vətəndaş münasibətlərində sosial məmnunluğu daha da artıran faktorlardır. İndiki dövrdə bu çox mühüm əhəmiyyət kəsb edir.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən şərqşünas Seyid Camal Əzimbəylinin sözlərinə görə, DİN tərəfindən həyata keçirilən yeni layihələr cəmiyyətdə sosial məmnunluğun daha da artmasına xidmət edir: "Həqiqətən də son aylar bu istiqamətdə sistemli işlərin görülməsi müşahidə edilir. Bu yöndə işlər cənab Ramil Usubovun nazir olduğu dövrlərdə də gedirdi, ondan sonrakı dövrdə də gedir.

Cəmiyyətlə polis arasında münasibətlərin qurulmasında işlər daha da sürətləndirilib. Vilayət Eyvazov nazir olandan sonra bu yöndə gedən proseslər bir qədər də sürətlənərək miqyası genişlənir. Vilayət müəllim nazir olandan sonra apardığı islahatlar həqiqətən də cəmiyyət tərəfindən məmnunluqla qarşılanır. Bunu görməmək mümkün deyil. Bunu bir vətəndaş olaraq da cəmiyyətdə tez-tez müşahidə edirəm. Son aylar verilən bir sıra qərarlar, birmənalı olaraq, əhalinin mənafeyinə xidmət edir. Bütün bunlar, əlbəttə ki, polisə etimadın, rəğbətin yüksələn xətlə inkişafına xidmət edir. Polis-vətəndaş münasibətlərində sosial məmnunluğa stimul verir. Düşünürəm ki, cəmiyyətlə polis arasında mehriban münasibətlərin inkişafı Azərbaycan dövlətçiliyinin bütövlüyünə əlavə bir gücdür".

***Vidadi ORDAHALLI***

---

**Azərbaycanda ən çox iqtisadi artım olan şəhər və rayonlar adları açıqlanıb. 2019-cu ilin ilk yarım ilində paytaxt Bakı şəhəri istisna olmaqla, ölkənin digər bölgələrində ümumi iqtisadi artım 6,5% təşkil edib. Amma ayrı-ayrı şəhər və rayonlar üzrə bu göstərici fərqlidir.**

# Bu il ən çox iqtisadi artım Bakıdan sonra İmişlidə qeydə alınıb, ən çox iqtisadi tənəzzül isə...

## *Vüqar Bayramov: "İqtisadi artım və azalma bölgələrə cəlb olunan investisiyaların həcmi ilə bağlıdır"*



FED.az-ın araşdırma apardığı 73 şəhər və rayonda (bunlardan 9-u işğal altında olan rayonlar, 8-i isə Naxçıvan MR-dədir) əksər bölgələrdə iqtisadi artım baş verib. Ən böyük artım İmişlidə qeydə alınıb - 50%-dən çox. Ağstafa, Qazax, Göyçay və Şəmkir də sürətli iqtisadi artım olan ilk 5-likdədir.

Qeyd edək ki, 17 rayonda isə iqtisadi azalma var. Ən böyük azalma Ağcabədidə - 22,2%, Qobustanda 18,9% və Zəngilandadır - 30,5%.

Qeyd edək ki, ötən illə müqayisədə cari il ərzində iqtisadi artımın və tənəzzülün qeydə alındığı rayonlar fərqlidir.

Məsələ ilə bağlı fikir bildirən iqtisadçı-ekspert Vüqar Bayramov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, iqtisadi artım və azalma bölgələrə cəlb olunan investisiyaların həcmi ilə bağlıdır: "Nəzərə almaq lazımdır ki, İmişlidə bir sıra zavod və fabriklər fəaliyyət göstərir. Xüsusən də İmişlidə şəkər zavodunun fəaliyyət göstərməsi adıçəkilən rayonun iqtisadi artımına səbəb olub. İmişlinin məsafə baxımından Bakıdan uzaqda yerləşməsinə baxmayaraq, qeyd olunan rayona yatırılan investisiyaların həcmi digər bölgələrlə müqayisədə yüksəkdir. Bakı hər zaman iqtisadi aktivliyə görə seçilib. Digər rayonların da bu sahədə yüksək nəticə göstərməsi lazım idi. Bakı və İmişlidən sonra iqtisadi aktivlik Ağstafa, Qazax, Göyçay və Şəmkirdə qeydə alınıb. Qeyd olunan rayonlara investisiyaların cəlb olunması iqtisadi dinamikanın inkişaf etməsinə səbəb olub. İnvestisiyaların cəlb olunması yeni yaradılan iş yerlərinin sayının artmasına səbəb olub. Vətəndaşların işlə təmin olunması baxımından ölkənin bürün ərazilərində iqtisadi aktivliyin qeydə alınması üçün şərait yaradılmalıdır. Etiraf etmək lazımdır ki, regionlarda qeyri-neft sektorunun inkişaf etməsi üçün lazımi şərait yaradılır".

*"İnvestisiyaların cəlb olunması yeni yaradılan iş yerlərinin sayının artmasına səbəb olub"*

Həmsöhbətimizin sözlərinə görə, iqtisadi azalmanın qeydə alındığı bölgələrin sayı ötən illə müqayisədə azalıb: "Qeyd etdiyim kimi, iqtisadi dinamikanın dəyişməsində səbəb ölkənin hər bir ərazisinə yatırılan investisiyaların həcmi ilə bağlıdır. Aidiyyəti qurumlar iqtisadi tənəzzülün müəyyən olunduğu bölgələrə daha çox diqqət ayırmalıdırlar ki, investorlar həmin əraziyə investisiya yatırmaqda maraqlı olsunlar".

***Günel CƏLİLOVA***

# Azərbaycanın aqroekoturizm sahəsində görünməmiş dirçəliş...

**Ölkədə qeyri-neft sektorunun ən mühüm qollarından olan turizm bu gün həm də Azərbaycana ən çox valyuta qazandıran sahələrdən biri qismində çıxış edir. Artıq Azərbaycana gələn turistlərin ölkədə sərf etdikləri vəsaitin həcmi milyardlarla dollarla ölçülür. Ötən il ərzində xarici qonaqlar ölkəmizdə 2 milyard dollar pul xərcləyiblər.**

Bir daha xatırladaq ki, 2018-ci ildə Azərbaycana dünyanın 196 ölkəsindən 2.9 milyon və ya əvvəlki illə müqayisədə 5,7 faiz çox turist gəlib. Cari il ərzində isə bu rəqəmin daha yüksək olması gözlənilir.

Dövlət Turizm Agentliyinin məlumatına görə, 2019-cü ilin yanvar-avqust aylarında isə Azərbaycana səfər edən xarici vətəndaşların sayı illik müqayisədə 8,3% artaraq 2,1 milyona çatıb. Gələn əcnəbilərin yarısından çoxunu, daha dəqiq desək, 53%-ni Rusiya və Gürcüstan vətəndaşları təşkil edib. Bu il ərzində isə Rusiyadan Azərbaycana daha çox turistin gəlişi gözlənilir. Özü də rus turistlər yüksək büdcəli turistlər sayılır və onların ölkəmizə, xüsusən də paytaxt Bakıya səfərlərinin əsas məqsədi daha çox alış-verişlə bağlıdır. Bunu Rusiyanın "TurStat" turizm portalının son araşdırması da təsdiq edir. Belə ki, "TurStat" portalı payız mövsümündə istirahət və səyahət üçün MDB-nin ən yaxşı şəhərlərinin reytinqini açıqlayıb. Reytinqə görə, Bakı MDB ölkələri arasında rusiyalı turistlərin ən çox payız səyahətinə çıxdığı beş şəhərdən biridir. Minsk, Astana, Almatı, Daşkənd şəhərləri də ilk beşliyə daxil edilib. Portalın məlumatında qeyd olunur ki, oktyabrın sonunda Azərbaycanın Göyçay rayonunda nar festivalı keçiriləcək və bu da turistləri özünə payızda cəlb edən mühüm faktorlardan biridir. "TurStat" turizm portalı onu da qeyd edib ki, rusiyalı turistlər MDB şəhərlərində və ölkələrində payız səyahəti zamanı qonaqlama və yemək üçün gündəlik 40-100 dollar arası pul xərcləyirlər. Onlar Minskə bazar günü istirahəti, Astana və Bakıya isə şopinq üçün gedirlər.

Onu da qeyd edək ki, Azərbaycana daha çox rus turistin gəlişi üçün genişmiqyaslı işlər görülür. Elə bu günlərdə Dövlət Turizm Agentliyi Rusiyanın paytaxtı Moskvada keçirilmiş "World Food Moscow 2019" beynəlxalq qida sərgisində təmsil olunub. Burada ziyarətçilər 40-dan çox Azərbaycan şirkəti ilə tanış olmaq imkanı əldə edib, 400 kvadratmetrdən böyük olan milli stenddə sərgilənən yerli kənd təsərrüfatı və qida məhsulları ilə tanış olublar. Yeri gəlmişkən qeyd edək ki, rus və digər turistlərin, Bakı ilə yanaşı, bölgələrə də səfərlərinin sayının artırılması üçün yerli kənd təsərrüfatı məhsullarının xaricdə təqdimatı geniş vüsət alıb. Burada əsas niyyətlərdən biri də aqroekoturizmin inkişaf etdirilməsidir.

Xatırladaq ki, aqroekoturizm, yeni yaranmasına baxmayaraq, dünyada sürətlə inkişaf etməkdə olan sahələrdəndir. Dünya əhalisinin sayının artması və urbanizasiya bu sahənin inkişafına təkan verir. Həmçinin insanlar artıq dəniz-qum-günəş üçlüyünün yaratdığı kütləvi turizmin yerinə, alternativ turizm növləri ilə daha çox maraqlanırlar. Şəhər sakinləri, qısa müddətlik də olsa, kənddə yaşamağı, fermada gecələməyi, təbii kənd məhsulları ilə qidalanmağı, təbiətlə təmas qurmağı arzulayırlar. Elə aqroekoturizmin meydana çıxmasının kökündə də məhz bu arzunu reallaşdırmaq istəyi dayanır. 1980-ci illərdə Avropada yaranan aqroekoturizm günümüzdə daha geniş əhatə dairəsinə malikdir. Həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə yerli fermerlərə dəstək və onlar üçün alternativ satış kanalları yaratmaq məqsədilə aqro-eko turlar təşkil olunur. Aqroekoturizmi sosialyönümlü layihə də adlandırmaq olar. Belə ki, turizmin bu sahəsi regionlarda yaşayan əhalinin işsizlik və az gəlir kimi problemlərinin həllinə töhfələr verə bilir. Bu məsələ artıq Azərbaycanda da xüsusi diqqət mərkəzində yer alır.

Onu da bildirək ki, dünyanın müxtəlif ölkələrində aqroekoturizmin təşkili və fəaliyyət istiqamələri də müxtəlifdir. Məsələn, İtaliyada aqro-eko turlar daha çox fermalarda qonaqlamaq üçün təşkil edilir. Bundan başqa, bu cür turlar kənd təsərrüfatı məhsulları almaq, təbiət qoynunda gəzmək, təsərrüfat heyvanlarını bəsləmək, meyvə toplamaq və digər məqsədlər üçün də təşkil olunur. Son vaxtlar ölkəmizdə turizm sektorundakı canlanma özünü aqroekoturizm sahəsində də hiss etdirir. Azərbaycanda həyata keçirilən aqroekoturizm layihələrinə "Şəhərdən Kəndə" layihəsini misal göstərmək olar. Layihə Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan "Aqrar tədarük və təchizat" Açıq Səhmdar Cəmiyyəti tərəfindən həyata keçirilir. "Şəhərdən Kəndə"nin əsas məqsədi paytaxt sakinlərinin və xarici turistlərin asudə vaxtlarını səmərəli şəkildə keçirməsinə yardımçı olmaq, onlar üçün alternativ istirahət növü təşkil etmək, eyni zamanda, kəndlərdə yaşayan kiçik və orta fermer təsərrüfatı sahiblərinin gəlirini artırmaqdır. Bu günə qədər layihə çərçivəsində Şamaxının Qonaqkənd, Çaylı, Meysəri, İsmayıllının Təzəkənd kəndlərinə turlar baş tutub. Hazırda isə görünən odur ki, "Şəhərdən Kəndə" layihəsi davamlı olacaq və ölkəmizin həm kənd təsərrüfatı, həm də turizm sahəsinə öz töhfəsini verəcək.



Bununla yanaşı diqqət mərkəzində yer alan məqamlardan biri də ölkəyə təkcə Rusiya yox, digər istiqamətlərdən daha çox turist gəlişini təmin etməkdir. Bu sırada indi Pakistan, Hindistan, Avropa və ərəb ölkələri, Çin, İndoneziya və digərləri yer alır. Bu məqsədlə Azərbaycan Turizm Bürosu müxtəlif ölkələrdə təqdimatlar keçirir. Bunların nəticəsidir ki, ölkəmizə maraq göstərən turistlərin sayında da artım müşahidə olunur. Turizm potensialının tam reelizə edilməsi məqsədilə həyata keçirilən tədbirlər öz nəticəsini verir. Azərbaycana maraq göstərən turistlərin sayı ildən-ilə artır. Ölkəmizə gələn turistlərin sayı, şübhəsiz ki, qeyri-neft sektorundan gələn gəlirləri artırır, iqtisadi potensialı möhkəmləndirir. Bu sahədə infrastrukturun və xidmət sektorunun vəziyyətinin yaxşılaşdırılması, Azərbaycanın dünyada tanıdılması yönündə aparılan ardıcıl işlər, viza sisteminin sadələşdirilməsi artımı təşviq edir. Turist axını həm də valyuta gəlirlərinin artımı deməkdir. Cari ildə tursizm sektoru üzrə gəlirlərin 2,5 milyard dollara kimi çatması istisna olunmur. Bütün bu sadalananlar deməyə əsas verir ki, bu gün dövlətin turizm sahəsinə qoyduğu sərmayə öz bəhrəsini verir. Qurulan infrastruktur Azərbaycanı getdikcə daha da cəlbedici edir. Bu gedişlə, şübhəsiz ki, Azərbaycan dünyanın ən çox turist cəlb edən ölkələrindən birinə çevriləcək. Təbii ki, bu da ölkənin iqtisadiyyatının yüksəlməsinə, xüsusən də xidmət sektorunun inkişafına mühüm təkan verəcək.

***Tahir TAĞIYEV***

# SOCAR-a qarşı yeni kampaniya, Qarabağ əlillərini çirkin oyunlara cəlb etmək cəhdləri...

**Azərbaycan qanunlarla idarə olunan dövlətdir. Bunu, birmənalı olaraq, tərəddüd etmədən söyləmək mümkündür. Nəzəri cəhətdən götürdükdə burada qeyri-adi nəsə yoxdur. Çünki hər bir dövlət qanunla idarə edilməlidir. Ancaq praktik cəhətdən bəzən görürük ki, bəzi dövlətlərdə qanunların aliliyi tam təmin olunmur.**

Bu o deməkdir ki, qanunlara hörmətlə yanaşıldığı ölkədə hər kəs qanunun aliliyinə hörmət etməlidir. Yəni kiminsə vətən qarşısında hansısa xidməti ona əsas vermir ki, qanunun aliliyinə hörmətsiz yanaşsın.

Azərbaycanda canlarını vətən uğrunda müharibədə fəda etmiş şəhidlərimiz var. Onların ailələrinə həm dövlət, həm də cəmiyyətin böyük hörməti var. Eyni zamanda, dövlət tərəfindən bu tip ailələr güzəştlər və başqa qayğılarla əhatə edilir. Belə qayğı ilə əhatə olunanlardan digər təbəqə müharibə əlilləridir. Dövlət onları ev, avtomobillə təmin edir, tez-tez təqaüdlərini artırır. Ancaq bəzən görürsən ki, müəyyən işbazlar həmin müharibə əlillərindən öz məqsədləri üçün istifadə etməyə çalışırlar. Məsələn, hansısa ticarət obyektini əlilin adın rəsmiləşdirir və qazancından çox cüzi bir hissəni ona verir ki, müəyyən dövlət qurumları gələndə onların qabağına çıxsın.

Əlillərlə bağlı yaranan son hadisədə biz bunun bir daha şahidi olduq. Sosial şəbəkələrdə yayılan videodan görünür ki, müharibə əlilləri ilə SOCAR əməkdaşları arasında insident yaşanıb. Sonra məlum oldu ki, kimsə qanunla qadağan edilmiş yerdə ev tikmək istəyib, ərazi SOCAR-ın olduğu üçün qurum bunun qarşısını almaq istəyib və orada müqavimətlə üzləşib. Kadrlardan aydın görünür ki, döyülən SOCAR əməkdaşlarıdır, ancaq sosial şəbəkələrdə bəzi radikal dairələr bunu "polis əlilləri döydü" kimi təqdim edirlər. Yayılan rəsmi bəyantlardan aydın olur ki, sən demə, tikilən evin də əlillərə aidiyyəti olmayıb.

Sadəcə, kimlərsə öz qanunsuz fəaliyyətini Qarabağ əlillərinin dəstəyilə reallaşdırmaq istəyib. SOCAR-a qarşı qara piar aparanlar bilməlidirlər ki, Azərbaycan büdcəsinin əhəmiyyətli hissəsinin formalaşmasında həmin qurumun böyük rolu var. Büdcədən də bizim hamımız maliyyələşib, əməkhaqqı, təqaüd alırıqsa, niyə öz milli brendimizin adını ləkələməkdə maraqlı olmalıyıq? Ümumiyyətlə, kimlərinsə öz şəxsi mənfəətləri naminə Qarabağ əlillərindən istifadə etməsi, cəmiyyətdə qarşıdurma yaratması nə dərəcədə doğrudur?




İctimai-Siyasi Proseslər və Beynəlxalq Araşdırmalar Mərkəzinin rəhbəri Samir Adıgözəlli "Bakı-Xəbər"ə bildirdi ki, baş vermiş hadisədən çox narahatdır: "Bilirsiniz ki, bəzi radikal dairələr ölkədəki vəziyyəti gərginləşdirmək üçün fürsət axtarırlar. Qarabağ əlilləri ilə bağlı baş verən hadisə sanki onların əlinə bir "yağlı tikə" kimi keçib. Həm polisi ləkələyirlər, həm Azərbaycanın ən iri şirkəti olan SOCAR-ı, həm də Qarabağ əlillərinin adından siyasi manipulyasiya edirlər. Videoları mən də izlədim. Kimsə əlili döyməməlidir, bu aydındır. Ümumiyyətlə, əlil olmayan adamın da döyülməsi cinayətdir. Ancaq məsələnin başqa bir tərəfi də var. Kimsə də vətən qarşısındakı xidmətindən istifadə edərək başqalarının hüququnu pozmamalı, qanunsuzluğun həyata keçməsinə çalışmamalıdır. Kadrlardan görürük ki, SOCAR əməkdaşları yalnız özlərini qoruyurlar. Bu nəticədir. Gəlin səbəbi axtaraq. Vəziyyət həmin həddə niyə çatıb? Məlum olur ki, kimsə qanunsuz ərazidə ev tikmək üçün əlillərdən istifadə edir. Amma ortaya başqa sual da çıxır: ərazidə ev tikmək qadağandırsa, onda ətrafdakı evlər necə tikilib? Yəni bu istiqamətdə kompleks araşdırma aparılmalıdır.

**Davanın yaranmasına səbəb olan bütün faktorlar dərindən araşdırılmalıdır. Mən başa düşürəm ki, həmin əlillər həssas insanlardır. Onlara diqqət olmalıdır. Ancaq gərək heç kim onlardan öz oyunları üçün istifadə etməsin. Məsələn, əlillərin maşın idarə etməsi ilə də bağlı ciddi narazılıqlar var. Onlara dövlət tərəfindən verilən avtomobillərə nömrə vurmurlar.**

Kiminsə avtomobili ilə toqquşanda görürsən ki, sığortaları yoxdur, maşını da düzəltməkdən imtina edirlər. Belə hallar həddən artıqdır. Onlara rəhbərlik edən təşkilatlar bu məsələlərlə bağlı ciddi maarifləndirmə aparmalıdırlar".

***Məhəmmədəli QƏRİBLİ***




# Pensiyaçılarımız minimum pensiyanın artırılmış ilk məbləğini nə vaxt alacaqlar...

## *Fazil Talıblı: "Oktyabrın 1-dən etibarən minimum pensiya məbləği 160 manatdan 200 manata yüksəlib"*

**Azərbaycanda əmək pensiyasının artırılmasını nəzərdə tutan qanun qüvvəyə minib. Pensiyanın minimum məbləğinin 160 manatdan 200 manata çatdırılması 660 min nəfər pensiyaçını əhatə edəcək.**

Qeyd edək ki, "Əmək pensiyaları haqqında" Qanuna əsasən, əmək pensiyasının minimum məbləği 2019-cu il 1 oktyabr tarixindən 200 manat məbləğində müəyyən olunur. Təyin edilən əmək pensiyasının məbləği əmək pensiyasının minimum məbləğindən aşağı olduqda, həmin məbləğə çatdırılmaqla ödənilir. Bundan başqa, sığortaolunanların fərdi hesabının sığorta hissəsində qeydə alınan pensiya kapitalı ildə bir dəfə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunan istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən indeksləşdirilir.

Maraqlıdır, pensiyaçılar artırılmış pensiya məbləğini nə zaman alacaqlar? Elə bu sualla Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinə müraciət etdik.

*"Pensiyaçılar artırılmış pensiya məbləğini oktyabrın 8-dən 20-dək əldə edə bilərlər"*

**Nazirliyin ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin müdiri Fazil Talıblı "Bak-Xəbər"ə açıqlamasında qeyd etdi ki, oktyabrın 1-dən etibarən minimum pensiya məbləği 160 manatdan 200 manata yüksəldi. 660 min pensiyaçı artıq 200 manat dəyərində pensiya alacaq.**

Həmsöhbətimiz onu da vurğuladı ki, pensiyaçılar artırılmış pensiya məbləğini oktyabrın 8-dən 20-dək əldə edə bilərlər.

***Günel CƏLİLOVA***

# Bəzi şou müğənnilərin yol polisinə qarşı yolverilməz davranışları yenə başlayır...

## Əziz Qəmbərov: "...özlərini cəmiyyətdə "toxunulmaz şəxs" saymaqlarının göstəricisidir"

**Şou-biznesdə təmsil olunan bəzi müğənnilərin Azərbaycan dövlətinin qanunlarına əməl etməməsi tendensiyası yayılıb. Xüsusən də yol polisləri ilə bağlı məsələlərdə şou-biznesçilər bir sıra qanunsuzluqlara yol verirlər. Onlar bir çox hallarda yol hərəkəti qaydalarını ciddi şəkildə pozur, qadağa nişanlarına, polisin çağırışlarına əhəmiyyət vermək istəmirlər.**

Bəzi şou-biznesçilərdə belə fikir formalaşıb ki, onlar populyar olduqları üçün bütün qayda-qanunları poza bilərlər, yol hərəkəti qaydalarını pozanda belə, polisin onları saxlamaq ixtiyarı yoxdur (?). Belə iddiada olan kifayət qədər müğənni var. Onlar öz populyarlıqlarından sui-istifadə edərək yol polisinə qarşı müxtəlif qaralama kampaniyaları həyata keçirirlər. Halbuki, onlar da Azərbaycan vətəndaşları olaraq bütün qanunlara riayət etməli və yol hərəkəti qaydalarını pozmamalı, pozduqları halda isə cərimələrini ödəməlidirlər. Bütün vətəndaşlar qanun qarşısında cavabdehdirlər. Amma təəssüf ki, bəzi şou-biznesçilər bunu unudurlar. Amma onların bu qeyri-etik davranışları sonradan özlərinə baha başa gəlir.

Bəzi şou müğənniləri sərxoş vəziyyətdə avtomobil də idarə edir və bu halda yol hərəkəti qaydalarını dəfələrlə pozurlar. Yol polisi onlara irad bildirdikdə, hərəkətləri ilə bağlı cərimə tətbiq etdikdə isə onların böyük əksəriyyəti yol polislərini söyür, təhqir edir və onları hədələyirlər.

Bu günlərdə Xəyal Qasımzadə adlı müğənni polisləri təhqir edib. Yayılan məlumatlara görə, Nizami rayonu, Nəsimi küçəsində "STOP" nişanının tələblərini pozan X.Qasımzadə yol polisləri tərəfindən saxlanıb. Avtosfer.az xəbər verir ki, 99 YP 378 dövlət nömrə nişanlı YPX avtomobili ilə xidmət aparan əməkdaşlar - Samir Elmanov və Nüsrət Səfərov sürücüyə qayda pozuntusunu izah edərək sənədlərini tələb ediblər.

Lakin 99 PB 494 dövlət nömrə nişanlı, "Chevrolet Malibu" markalı avtomobili idarə edən X.Qasımzadə heç bir sənəd təqdim etməyib. O, yol polisləri ilə əvvəlcə mübahisə edib. Özünü "Şeron" qrupunun keçmiş üzvü kimi təqdim edən sürücü tanınmış şəxs olduğunu bildirərək yol polislərinə ona heç nə edə bilməyəcəklərini deyib. Ardınca YPX əməkdaşlarını təhqir edən X.Qasımzadə səs-küy salaraq təhqiramiz ifadələr işlədib. Bununla kifayətlənməyən sürücü yol polisinə hücum edərək əl-qol hərəkətləri edib.

Lakin YPX əməkdaşları əraziyə post-patrul xidmətinin əməkdaşlarını dəvət edərək, sürücünü 25-ci Polis Bölməsinə təhvil veriblər.

Sürücü barəsində toplanmış materiallar aidiyyəti üzrə Nizami Rayon Məhkəməsinə təqdim olunub. Polisə tabesizlik göstərən, ictimai asayişi pozan sürücü Xəyal Qasımzadə barəsində məhkəmənin qərarı ilə 10 gün müddətində inzibati qaydada həbs tədbiri seçilib.

Ümumiyyətlə, şou-biznes nümayəndələrinin yol polisini təhqir etməsi, onun xəbərdarlıqlarına əhəmiyyət verməməsi nədən qaynaqlanır? Şou-biznesçilər bu addımı atmaqla nəyə arxayındılar?

Tanınmış hüquqşünas, vəkil Əziz Qəmbərov "Bakı-Xəbər"ə bildirdi ki, bəzi şou-biznesçilərin öz populyarlıqlarından sui-istifadə etməsi halları geniş yayılıb və qanunazidd əməldir. "Şou-biznesçilərin yol polisinə qarşı qanunazidd əməlləri səbəbsiz deyil, bu onların indiyə qədər özlərini cəmiyyətdə "toxunulmaz şəxs" saymaqlarının göstəricisidir. Guya onlar toxunulmazdır və nə istəsələr onu edə bilərlər. Bu xalqın pulu ilə pullanıblar və pullandıqları üçün də qanunları saymaq istəmirlər. Əslində, bu, kökündən yanlış düşüncədir. Dövlət məmurlarından tutmuş, sadə vətəndaşlara qədər, hər kəs qanun qarşısında bərabər hüquqa, məsuliyyətə malikdir. Qanunlar heç kəsi bir-birindən fərqləndirmir. İstər yol hərəkəti haqqında, istərsə də digər qanunlar olsun, heç bir fərq qoyulmadan bütün vətəndaşlar o qanunların tələblərinə əməl etməlidirlər. Azərbaycan Konstitusiyası var və bütün qanunlar da ondan qaynaqlanır. Dövlətin qanununu pozmuş hər bir vətəndaş qanun çərçivəsində sərt şəkildə cəzalandırılmalıdır. Ancaq çox təəssüflər olsun ki, bəzi hallarda müəyyən məhkəmə orqanlarının şou-biznesçilərlə bağlı məsələlərə birmənalı yanaşmaması onların bu cür qanunsuzluqlara yol verməsinə səbəb olur. Bir də görürsən ki, şou-biznesçi, hansısa bir populyar müğənni bu kimi qanunazidd əməllərə yol verir, ancaq bəzi məhkəmələrdə onların bu əməllərinə haqq qazandırılır. Bilirsiniz ki, məhkəmə orqanlarında şəffaflığın təmin olunması, məhkəmə sistemində islahatların daha da dərinləşməsi ilə bağlı cənab Prezidentin verdiyi sərəncamın böyük əhəmiyyəti var.



Cənab Prezidentin belə bir sərəncam imzalaması bu sahədə baş verən problemlərin aradan qaldırılması ilə bağlıdır. Bəzi məhkəmələr şou-biznesçilərlə, müğənnilərlə müxtəlif əlaqələrə girərək onlar üçün cəzasızlıq yaradır və şou-biznesçilər də bundan istifadə edərək qanunların tələbini pozmaqda davam edirlər. Onlar deyirlər ki, mən populyaram, pulum var və yol hərəkəti qaydalarını poza, polisi təhqir edə bilərəm.

**Onların yol verdikləri bu hərəkətlər böyük hüquq pozuntusudur. Mən həm bir vətəndaş, həm də bir vəkil kimi şou-biznesçilərin yol polisinə qarşı neqativ hərəkətlərini qınayıram. Bütün vətəndaşlar, kimliyindən asılı olmayaraq, polisin xəbərdarlığına əhəmiyyət verməli, saxlanarkən sənədlərini təqdim etməlidirlər" - deyən Ə.Qəmbərov hesab edir ki, şou-biznesçilər qayda-qanunları pozmamalı və qanunu pozanlar cinayət məsuliyyətindən kənarda qalmamalıdırlar.**

*İradə SARIYEVA*

# Azərbaycanda məktəb müəllimlərinin vahid geyim formasına keçdikləri ilk təcrübə...

***Nadir İsrafilov:** "Müəllimlərin vahid geyim formasına keçməsi..."*

**Uzun illərdən bəri ölkə ictimaiyyətini, valideynləri, ziyalıları narahat edən məsələlərdən biri təhsilin əsas siması olan müəllimlərin geyimidir. Mütəxəssislərin fikrincə, müəllimlərin qeyri-düzgün geyim forması müəllim nüfuzuna, şagirdlərin tərbiyəsinə, tədrisin keyfiyyətinə ciddi təsir göstərən əsas amillərdən biridir.**



Övladlarının təhsilini, tərbiyəsini etibar etdikləri şəxslərin açıq-saçıq geyimləri, həddən-ziyadə taxdıqları zinət əşyaları, istifadə etdikləri parlaq və şit boyalı bəzəklər, kosmetikalar bəzən bu müqəddəs peşə sahiblərinə olan inamın azalmasına gətirib çıxarır. Bu kimi hallardan narahatlıq hissi keçirən valideynlər də düşünürlər ki, belə vəziyyət övladlarına mənfi təsir edir, təhsil prosesi zamanı onların fikrini yayındırır. Bundan başqa, şagirdlər arasında həmin müəllimlər müzakirə obyektinə çevrilir, bəziləri həmin müəllimləri hətta özlərinə örnək götürürlər.

Bu səbəbdən müəllimlərin vahid geyim formasına keçməsi dəfələrlə müzakirə olunub. Bəzi tədris ocaqları müvəqqəti olaraq müəllimlər üçün vahid geyim forması tətbiq etsə də, müəyyən müddət keçəndən sonra pedaqoqlar yenidən sərbəst geyimə qayıdıblar.

Bu günlərdə Şəkinin Oxud kənd tam orta məktəbinin müəllimləri vahid geyim formasına keçiblər. Yeni dərs ilinin ilk günündən müəllimlər siniflərə ağ köynək və boz kostyumda daxil olublar. Qeyd edək ki, vahid formaya keçilməsi təşəbbüsü məktəbin pedaqoji şurasında müzakirə olunduqdan sonra reallaşıb. Şəkinin Oxud tam orta məktəbinin müəllimlərinin vahid geyim formasına keçməsi ictimai xadimlər tərəfindən müsbət dəyərləndirilir. Ekspertlər təklif edirlər ki, şagirdlərlə yanaşı, pedaqoqların da vahid geyim formasına keçməsi yaxşı olar.

Məlumat üçün bildirək ki, bir sıra xarici ölkələrdə müəllimlər vahid geyim formasında təhsil ocağına gələ bilərlər. Məsələn, Pakistanda müəllimlərin "dress kod"a (müəyyən peşə qrupuna aid geyim forması) riayət etməməsini təsəvvür etmək çətindir. Burada uzun illərdir müəllimlər milli geyimdə olurlar və cəmiyyətin qınaq obyekti olmaqdan ehtiyat edirlər. Pakistanda qaydalar çox sərtdir. Geyimin əsas atributu hicab sayılır, bədənlərinin hər hansı hissəsi görünə bilməz.

Türkiyədə isə müəllimlərin geyimi ədəb normaları və zövq nəzərə alınmaqla tətbiq edilir. Burada da baş örtüyü ilə məktəbdə dərs deyən müəllimlərin sayı artmaqdadır. İstanbul universitetlərindən birində bildiriblər ki, müəllimlər çox ciddi geyinir, amma bununla bağlı rəhbərliyin hər hansı əmri yoxdur. Bir qayda olaraq, ya dəst, ya da köynək geyinilir. Ən əsası odur ki, müəllim səliqəli geyinsin.

Nyu-York ştatında bir məktəbdə isə cins geyinmək qəti qadağan olunub. Bəzi məktəblərdə kişi müəllimlərin bığ, saqqal saxlamaq, qadınlara isə bəzək-düzək, kəskin makiyaj yasaq edilib. Lakin "dress kod"un pozulmasına qarşı ciddi cəzalar yoxdur. Amma, bununla belə, müəllimlər uyğun olmayan geyimdə gələrsə, ya paltarını dəyişməsi üçün evə göndərilir, ya da nizam-intizam məsuliyyətinə cəlb edilir.

## "Məktəbdə imkan daxilində ciddi geyinməlidirlər"

Müəllimlər üçün vahid geyim formasının ölkəmizdə də tətbiq olunması təklif olunur.

Təhsil eksperti Nadir İsrafilovun sözlərinə görə, Azərbaycanda müəllim geyimi ilə bağlı məsələ bir neçə dəfə gündəmə gətirilsə də, bununla bağlı hər hansı tədbir görülməyib: "Dünyanın ayrı-ayrı ölkələrində müxtəlif peşə sahiblərinin xüsusi geyimləri var. Nəyə görə müəllim üçün xüsusi geyim olmasın?! Azərbaycanda məktəbli geyimi haqqında əmr var. Amma müəllimlərin geyimi ilə bağlı qanunvericilikdə hər hansı müddəa yoxdur. Şübhəsiz ki, müəllimin geyimi ciddi, rəsmi olmalıdır, fərqlənməlidir. Digər tərəfdən, bizim mentalitet var. Vahid müəllim forması olmadığına, qanunvericilikdə bu nəzərdə tutulmadığına görə hansısa müəllimi geyiminə görə ittiham etmək, yaxud ona qarşı hər hansı bir cəza tətbiq etmək və ya tənbeh etmək olmur. Amma şübhəsiz ki, müəllimin geyimi intizamdır, mədəniyyətdir. Ona görə də, hesab edirəm ki, müəllim klassik formaya üstünlük verməlidir. Müəllim şou əhli deyil axı. O, açıq-saçıq geyinərsə, əlbəttə ki, qınağa səbəb olacaq. Çünki müəllim ən şərəfli peşədir və biz ona etalon kimi baxırıq. Müəllimin geyimində hər hansı bər-bəzək yolverilməzdir.

Xüsusən qadınlar şəhər məktəblərində öz geyimlərini nümayiş etdirmək üçün gəlirlər, bunun üçün toy var, digər yerlər var. Məktəbdə imkan daxilində ciddi geyinməlidirlər".

N.İsrafilov onu da qeyd etdi ki, bir müddət əvvəl Sumqayıt məktəblərində qadınlar üçün ayrıca, kişilər üçün ayrıca müəllim forması tətbiq olundu: "Amma sonra davam etdirilmədi. Bunu hansısa kollektivlər könüllü şəkildə etsələr, sözsüz ki o biri məktəblər də baxıb edəcəklər. Beləliklə də məsələ ictimailəşər, gündəmə gələr. Bizdə bütün peşə sahiblərinin, deməli olar ki, geyim forması var. Biz axı "müəllim nümunədir" deyirik.

Nəyə görə müəllim geyiminə görə də nümunə olmasın? Dünya ölkələrində ayrı-ayrı universitetlərdə tələbələr formalar geyinirlər. Bu məsələ gündəmə gətirilsə, ictimailəşsə, rayon, şəhər üzrə müsbət nəticə əldə edilə bilər, təlim-tərbiyə prosesinə də böyük təsiri olar. Şəkinin Oxud kənd tam orta məktəbində çalışan müəllim heyətinin vahid geyim formasına keçməsi müsbət haldır. Bu ənənə bir neçə məktəbdə deyil, bütün tədris müəssisələrində tətbiq olunmalıdır".

***Günel CƏLİLOVA***

# Özəl klinikalar dövlətin həssas təbəqələrinə yönəlik sosial dəstək layihələrinə, ümumiyyətlə, qoşulmur...

***İlqar Hüseynli:** "Bəla ondadır ki, bu kimi məsələlərdə hamı dövlətdən..."*

**Korporativ sosial məsuliyyət şirkət və quruluşların cəmiyyətə qarşı olan məsuliyyətlərinin məcmuəsidir. Korporativ sosial məsuliyyət, ilk olaraq, şirkət və ya qurumun yaşadığı cəmiyyətdə vergiləri ödəməsi, ətraf mühitə hörmətlə yanaşması və öz işçilərinin iş şəraitini düzgün qurmasından başlayır.**



Daha sonra bu fəaliyyət cəmiyyətin yararına olan hər hansı bir problem və ya paradiqmanı inkişaf etdirmək, ona dəstək olmaqla davam edir. Şirkət və ya qurum korporativ sosial məsuliyyəti ilə fəaliyyət zamanı cəmiyyətin hər hansı bir problemli sahəsinə köməklik göstərir və bu köməklik qalıcı olur.

Bu gün Azərbaycanda çoxsaylı özəl klinika fəaliyyət göstərir. Sözügedən klinikaların əksəriyyətinin həm maliyyə imkanları, həm də peşəkar həkimlərlə yanaşı, texniki imkanları üstün səviyyədədir. Ancaq bütün bu parametrlərə rəğmən, ölkədəki özəl klinikalar korporativ sosial məsuliyyət prizmasından əhaliyə xidmət etmirlər. İş ondadır ki, indiyə qədər heç bir özəl klinikanın öz daxili vəsaitləri hesabına hansısa tanınmış sənət adamını, sıradan bir imkansız ölkə vətəndaşını müalicə etməsinin şahidi olmuruq. Xeyriyyəçilik edib hansısa xəstənin müalicə xərclərini öz üzərlərinə götürmürlər. Prezident İlham Əliyev və ölkənin birinci xanımı Mehriban Əliyevanın humanistliyi sayəsində bir çox insan müalicə edilərək yaşamaq imkanı əldə edib. Özəl klinikaların fəaliyyəti üçün dövlətin yaratdığı geniş imkanlara baxmayaraq, sözügedən klinikalar əhalinin həssas təbəqələrinə yönəlik sosial dəstək layihələrinə qoşulmurlar. Ölkədəki tikinti şirkətləri qaçqın və məcburi köçkünlər üçün inşa edilən mənzil tikintisində iştirak edirlər. Ancaq, qeyd olunduğu kimi, özəl klinikalar, ümumilikdə, bütün xeyriyyə işlərindən uzaqdırlar.

## "Nəinki özəl klinikalar, böyük şirkətlər var ki, kifayət qədər vəsait qazanırlar, amma bu kimi sosial xeyriyyə aksiyalarında iştirak etmirlər"

Sözügedən məsələni dəyərləndirən ekspert İlqar Hüseynlinin sözlərinə görə, Azərbaycanda özəl klinikalar müəyyən müayinələri bəzən pulsuz həyata keçirirlər: "Bununla bağlı hansısa aksiya keçirirlər. Ancaq yaxşı olardı ki, bu işdə onlar daha fəal iştirak etsinlər. Bir sıra hallarda bahalı ağır əməliyyatların pulsuz edilməsi mümkün olmur. Məsələn, bizdə özəl klinikaların qaraciyər transplantasiyası imkanları yoxdur. Digər tərəfdən, nəinki özəl klinikalar, böyük şirkətlər var ki, kifayət qədər vəsait qazanırlar, amma bu kimi sosial xeyriyyə aksiyalarında iştirak etmirlər. Özəl klinikalar, ən azından, güzəştli şərtlərlə əməliyyatların edilməsinə şərait yaratmalıdırlar. Böyrək, öd kisəsi üzərində olan əməliyyatları öz imkanları hesabına edə bilərlər. Bütün özəl şirkətlərin, o cümlədən, özəl klinikaların üzərində korporativ sosial məsuliyyətlə bağlı qanun var. Ona görə də özəl klinikalar xeyriyyə xarakterli aksiyalara qoşulmalıdırlar. Aztəminatlı ailələrin müalicəsini öz üzərlərinə götürə bilərlər. Ümumilikdə, sosial korporativ məsuliyyət böyük pul qazanan bütün şirkətlərin üzərində var. Ancaq bəla ondadır ki, bu kimi məsələlərdə hamı dövlətdən mədət umur. Hesab edirəm ki, bu doğru deyil".

***Vidadi ORDAHALLI***

# BAKI XƏBƏR

№ 175 (4073) ■ Qiymәti: 40 qәpik

2 OKTYABR 2019-cu il

www.baki-xeber.com


# 118 il əvvəl batmış "kabus gəmi" tapıldı

**Amerikalı dalğıclar 1901-ci ildə Minnesota ştatındakı Superior gölündə batan gəmi aşkarlayıblar.**

"Oxu.az" xəbər verir ki, yerli sakinlər onu "kabus gəmi" adlandırırlar. Gəmi gölün 250 metr dərinliyində aşkarlanıb. Araşdırmaçılar onun şəklini çəkməyə nail olublar. Məlumata görə, 1888-ci ildə hazırlanmış gəmi praktiki cəhətdən heç bir zədə almayıb. Bildirilib ki, gəmi 118 il əvvəl, 1901-ci ilin sentyabrında güclü qasırğa zamanı batıb. Hadisə zamanı bəzi gəmiçilərin meyitləri çıxarılıb, qalanlarının taleyi isə hələ də məlum deyil. Yerli sakinlər iddia edir ki, "kabus gəmi" indi də suyun altında hərəkət edir. Əslində, nəyin baş verdiyini və gəminin sirlərini tarixçilər araşdırmalı olacaqlar.



## Elan

Hüseynzadə Nicat Maqsud oğluna Bakı Biznes Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Qənbərli Toğrul Aqil oğluna Bakı Biznes Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Bağırzadə Uğur Qurban oğluna Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır (AZE N15448948, Culfa RPŞ).

Ələkbərova Nüşabə Dursun qızının adına, Bakı şəhəri, Xətai rayonu, N.Rəfiyev küçəsi 25, mənzil 77 ünvanının çıxarış sənədi itdiyi üçün etibarsız sayılır.

Ələkbərov İsmayıl Vəli oğlunun adına, Gədəbəy rayonu, Yeni Saratovka kəndində yerləşən torpağın JN 372 kod 50518018 nömrəli dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Əliyev İlqar Nəriman oğlunun adına, Sumqayıt şəhəri, Novxanı bağ massivində yerləşən torpaq sahəsinə verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

Əzimova Elmira Məmmədkərim qızına məxsus, Bakı şəhəri, Ləhiş bağlar massivi (qəsəbəsi), bağ N4390 ünvanına verilmiş müqavilə itdiyi üçün etibarsız sayılır.

Sadıqov Babək Yolçu oğlunun adına, Xəzər rayonu, Qala qəsəbəsində yerləşən torpaq sahəsinə verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

Məmmədov Nizami Ələmdar oğlunun adına, Nəsimi Rayon Hərbi Komissarlığı tərəfindən verilmiş Qarabağ müharibəsi veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Həsənov Hüseynəli Həsənəli oğlunun adına, Xəzər rayonu (Əzizbəyov), Mərdəkan qəsəbəsində yerləşən N36 -a bağa verilmiş N20827 müqavilə itdiyi üçün etibarsız sayılır.

Cavadov Elşad Mətləb oğluna məxsus, Abşeron rayonu, Hökməli qəsəbəsində yerləşən torpaq sahəsinə verilmiş çıxarış (seriya RX N0454718) itdiyi üçün etibarsız sayılır.

Əliyev Nəriman Heydər oğluna məxsus, Sumqayıt şəhəri, Novxanı bağ massivində yerləşən torpaq sahəsinə verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

Qurbanova (keçmiş Musayeva) Rahilə Nazaz qızına məxsus, Bakı şəhəri, Xəzər rayonu, Mərdəkan bağlar massivində yerləşən N2479 bağın N79 orderi itdiyi üçün etibarsız sayılır.

## Dağıstanlıların toyu "Ginnesin rekordlar kitabı"na düşdü



**Dağıstanın Dərbənd şəhərində yerləşən stadionda bazar günü keçirilən çoxmillətli toy və qonaqların sayına görə olan mərasim "Ginnesin rekordlar kitabı"na düşüb.**

"Trend" bildirir ki, Dərbənd administrasiyasının Zaqs şöbəsinin müdiri Tatyana Marçenko toyun reallığını qeyd etdi: "Vətəndaş qeydiyyatı idarələri tarixində ilk dəfə olaraq ən böyük çoxmillətli toy mərasimi olan qədim Dərbənddə belə bir möhtəşəm hadisə ilə qarşılaşıram.16 millətin nümayəndələrinin 24 cütlüyünün müvafiq məlumatları 29 sentyabr 2019-cu il tarixdə Dərbənd şəhər vətəndaşların qeydiyyatı aparatı kitabına daxil edilmişdir. Rusiya Federasiyasının ailə məsələsinə əsasən, bu gün öz ailələrini yaradan cütlüklərin məlumatlarının qeydə alınması faktını təsdiqləyirəm".

## Zəlzələləri fürsət bilib pul qazananlar...

**Türkiyədə 2 gün öncə baş verən 5,8 ballıq güclü zəlzələdən sonra bir qrup gənc "WhatsApp"da zəlzələ proqnozu üzərindən mərc oyununa başlayıblar.**

"Ölkə.az" xəbər verir ki, onlar növbəti zəlzələnin dəqiq gücü ilə bağlı proqnoz veriblər və bunun üçün pul yatırdıqlarını yazıblar. Zəlzələnin şiddətinə görə qumar oynayan bu şəxsləri qurduğu qrupun linkləri müxtəlif mərc oyunları səhifələrində paylaşılıb və onlarla adam ora daxil olub. Bəzi şəxslər isə onları tənqid edərək bədbəxt hadisə üzərindən pul qazanmağın insanlığa yaraşmadığını qeyd ediblər. Qrupda olan şəxslərdən birinin yazışmalardan götürdüyü ekran görüntülərini təqdim edirik.





**Qoç** - Enerjinizin həddi-hüdudu yoxdur. Amma bir dənə də olsun, dəyərli və maraqlı bir iş tapa bilmirsiniz ki, həmin qaynayan enerjinizi ona sərf edəsiniz. Nəticədə, vaxtınızı boşuna sərf edirsiniz.



**Buğa** - Gün maraqlı və uğurludur. Onu nəyə həsr etmək qərarını özünüz verə bilərsiniz. Tamamilə yeni bir işə başlasanız, ilk uğurların bu qədər tez alınmasına təəccüblənəcəksiniz.



**Əkizlər** - Bu gün göylərin xüsusi himayə göstərdiyi şəxslər arasındasınız. Günün birinci yarısı buna tam əmin olacaqsınız. Yeniliklərə, həyatınızı dəyişməyə nə qədər çox can atırsınızsa, bir o qədər bu işdə uğur qazanırsınız.



**Xərçəng** - Tamamilə yeni, daha maraqlı bir işlə məşğul olmaq arzusundasınız. Ancaq məsuliyyət və vədləriniz sizi sərbəstlikdən məhrum edir: əvvəlki işlərinizi bitirmədən irəli gedə bilməyəcəksiniz.



**Şir** - Bu gün öz qayğınıza özünüz qalın, "yuxarılar" məşğuldur. Maliyyə vəziyyətiniz zərbə altındadır: pullar gah bilinməyən istiqamətdə yoxa çıxır, ya da dəhşətli dərəcədə azalır.



**Qız** - Həm gücünüz, həm də həmişəki kimi, inadınız çoxdur. Yəni, sizin üçün görülməsi mümkün olmayan iş yoxdur. Üstəlik, qarşınızda gözlənilməz imkanlar açılır və siz onlardan lazımi qaydada istifadə edirsiniz.



**Tərəzi** - Sizə bir qədər dözüm gərəkdir, çünki gün ərzində bəzi xırda-para xoşagəlməzlik yaşayacaqsınız. Sadəcə, gözləmə mövqeyi tutun. Özünüzdən çıxmaq məsləhət deyil: neqativ emosiyalar sizi düşünülməmş hərəkətlərə təhrik edə bilər.



**Əqrəb** - Köhnə bir probleminizin yenidən baş qaldırması ehtimalı var. Bu dəfə problemin heç olmadığı kimi davranmaq karınıza gəlməyəcək. Ümumiyyətlə, siz artıq reallığa dönərək hər şeyi olduğu kimi görməyə hazırsınız.



**Oxatan** - Həftənin ən anlaşılmaz günüdür. Bu gün alacağınız bir xəbər sizi çaşdıracaq. Bir çox Oxatanlar planlarını tələsik dəyişməli, başqalarının mənafeyi naminə nəyisə qurban verməli olacaqlar.



**Oğlaq** - Sizin üçün çox dəyərli bir insana görə narahatlıq keçirəcəksiniz: onun hərəkətləri sizə düşünülməmiş və təhlükəli görünür. Öz işləriniz barədə düşünməyə vaxt qalmır, baxmayaraq ki, onlar da özlərinə qarşı ciddi diqqət tələb edir.



**Dolça** - Bu gün baş verən hadisələr sizi sevindirəcək. Hər işiniz alınacaq. Pullarla bağlı istənilən əməliyyat uğurlu olacaq, işgüzar hissiyyatınız sizi aldatmayacaq. Alış-veriş, sövdələr məsləhətlidir.



**Balıqlar** - Aza qane olmayın: bu gün, doğrudan da, böyük qələbələr qazana bilərsiniz. Düzgün qərarlar vermək üçün bilik və təcrübəniz yetərincədir. Öz imkanlarınıza şübhə etməyi bir kənara qoyun.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Ufoloq Marsda bütöv bir "şəhər" aşkar edib?

**Maraqlı tapıntıları ilə tanınan "Scott Waring" növbəti açıqlaması ilə ictimaiyyətin diqqətini öz üzərinə çəkməyi bacarıb.**

"Ölkə.az" bildirir ki, Marsın səthindəki fotolara baxarkən Waring şəhər aşkar etdiyini iddia edib. O, bu şəhəri NASA-nın Mars səthindəki fotoşəkillərində aydın görmək mümkün olduğunu bildirib. Onun sözlərinə görə, bu fotolar Marsda hələ də həyatın olduğunu sübut edə bilər. Ancaq ufoloq bunun nadir bir təbiət hadisəsi ola biləcəyini də istisna etmir. Tədqiqatçı hesab edir ki, bu "şəhər" birbaşa Atlantislə əlaqəlidir. O bildirir ki, bu sivilizasiyanın nümayəndələri bir vaxtlar Marsda yaşayıb, lakin bizə məlum olmayan səbəblərə görə, Yerə köçərək cansız Marsı tərk ediblər. Ufoloq araşdırma apararaq tapıntısı haqqında çəkdiyi videosunu internetdə yayımlayıb. Onun sözlərinə görə, Marsın fotoşəkillərində qüllələri olan bəzi binaları və küçələri aydın şəkildə görmək mümkündür. Tədqiqatçı bildirir ki, bu fotoşəkillər Marsda nə vaxtsa həyatın olduğunun sübutudur.

*Hazırladı: Ramil QULİYEV*


Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.